www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16-17 yanvar 2016-cı il Şənbə № 11 (6332) Qiyməti 60 qəpik

Xəbər

**Bakıda 26 yaşlı gənc özünü yandırdı**

yazısı səh.14-də

Gündəm

## Banklara "kredit verməyin" xəbərdarlığının arxasındakı sirr



Hökumət üzən məzənnə rejiminə keçməklə yanvarın ortasında dolların kursunun manata nisbətdə 2.15 olmasını istəyirmiş, amma etiraz aksiyaları bu qərarı ertələyib; bəzi banklar dollar əmanətçilərinin vəsaitlərini niyə geri qaytarmağa çalışır?

yazısı səh.7-də

## Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi korrupsioner məmurlardan danışdı

yazısı səh.3-də

## Regionların inkişaf layihələri-milyonlar hara gedib?

yazısı səh.4-də

*Mahmud Quliyev:*

## "Əgər günahım olsaydı, Prezident Administrasiyasında dərimi boğazımdan çıxarardılar..."

yazısı səh.10-da

## AZAL qiymətləri endirəcək

yazısı səh.7-də

## Okeanın o tayından Qarabağ mesajı - ilginc gəlişmə

yazısı səh.8-də

*Zakir Həsənov:*

## "Erməniləri dinc oturmağa qoymayacağıq..."

yazısı səh.13-də

## Səhiyyə Nazirliyi aşkarlanan saxta diplomların sayını açıqladı

yazısı səh.11-də

## Tiflisin Bakıya qarşı qaz şantajı barədə ilginc şərh

yazısı səh.9-da

## Bakının mərkəzindəki mağazalar sürətlə bağlanır

yazısı səh.15-də

## Həmyerlimizə ABŞ-da yüksək vəzifə verildi

yazısı səh.8-də

## Neft böhranı xarici qüvvələri hərəkətə keçirir

# AZƏRBAYCAN ÜÇÜN ŞOK XƏBƏRDARLIQ: "ARTIQ DÜYMƏYƏ BASILIB"

Sabiq milli təhlükəsizlik zabiti rayonlarda başlamış etiraz aksiyalarına sensasion izahat verdi; hakimiyyətə və cəmiyyətə yönəlik ilginc çağırışlar: "Azərbaycanı Suriyaya, Yəmənə çevirmək üçün bütün imkanlarını ortalığa qoyublar..."




yazısı səh.6-da

# Prezident struktur islahatlarına başladı

Satınalmalar üzrə Dövlət Agentliyi ləğv edildi; nazirliklərdən birinin adı dəyişdirildi; Dövlət Bayrağı Meydanı İdarəsi Bulvar İdarəsinə birləşdirildi; yeni rabitə naziri təyin olundu

yazısı səh.7-də



*Pənah Hüseyn:*

## "Bir araya gəlsək, bəlkə bu bəladan az zərərlə qurtararıq"

yazısı səh.4-də



*Əhəd Abıyev:*

## "Dolların bahalaşmasının arxasında xristian-müsəlman davası dayanır"

yazısı səh.5-də



## Eldar Sabiroğlunun prokurorluqdan qovulan oğlu həbs edildi

yazısı səh.2-də

# Xalqın etirazları - müxalifət liderlərinin məqalələri...

## Natiq Miri: "Müxalifət proseslərə qarışsa, yeni həbs dalğası başlaya bilər"



**Ölkəmizdəki iqtisadi böhran son günlər bəzi bölgələrdə bahalaşma əleyhinə etiraz aksiyalarının keçirilməsinə səbəb oldu. Bu cür vəziyyətlərdə müxalifət önə çıxır, təşəbbüsü götürür. Azərbaycanda isə bunun əksini gördük: etiraz aksiyaları müxalifətdən kənar baş verdi. Devalvasiyadan sonra müxalif siyasətçilər bildirirdilər ki, mitinq keçirsələr, xalq qoşulmayacaq. Amma xalq hakimiyyəti də, müxalifəti də təəccübləndirdi - ölkənin bir neçə bölgəsində aksiyalar keçirildi.**

Hadisələrin bu cür qızğın vaxtlarında müxalifət liderləri blogger fəaliyyətinə üstünlük verib. Onlar sosial şəbəkələrdə köşə yazır, hakimiyyətə böhrandan çıxış yolu göstərir. Sanki müxtəlif variantlarla bu düşərgə aksiyalar keçirməkdən yayınır.

**Politoloq Natiq Miri** hər bir fəaliyyətin imkan səviyyəsində mümkün olduğunu qeyd etdi: "Bu gün müxalifətin iddiaları hazırkı imkanlarına adekvat deyil. Eyni zamanda, müxalifət ikinci devalvasiyanın fonunda, sosial xarakter daşıyan etiraz aksiyalarının başlamasına hazır deyildi. Buna görə də, proseslərin önündə gedə bilmədi. Hakimiyyət cəmiyyəti necə hazırlıqsız vəziyyətdə başlı-başına buraxdısa, eynilə müxalifət də bu vəziyyətdə yaxalandı. Rayonlardakı aksiyalarda bunun şahidi olduq. İndiki halda müxalifət hazırlıqsız önə çıxmaqla, aksiyalar təşkil etməklə nəticə qazanacağına əmin deyil. Çünki o gücdə olmadıqlarına özləri də əmindirlər. Təşkilatçılıq yolunda müəyyən addımlar ata bilərlər. Amma bu, həmin siyasi qüvvələrin əleyhinə ciddi şəkildə işləyə bilər. Çünki müxalifətin təşkil etmədiyi son aksiyalarda hakimiyyət birbaşa onları ittiham etdi. Siyasi partiyalardan bəzi funksionerlərin həbs olunması halları ortada var. Amma bu gün müşahidə apar saq, görürük ki, aksiyalarda iştirak edənlər həmin həbs edilən funksionerləri müdafiə etmirlər. Bu baxımdan tələb olunan mühit hələ hazır deyil. Sadəcə, ciblərinə dəyən təsiri artıq hiss ediblər. Buna görə də, bu cür reaksiyalar baş verdi. Müxalifətin indiki durumda önə çıxması yeni həbs dalğasının başlamasına səbəb ola bilər. Ona görə bu zamanı müxalifət dəqiq dəyərləndirməli, indidən belə proseslərə hazırlaşmalıdır".

**Politoloq hakimiyyətin barışıq mühiti yaratmasının vacibliyindən də söz açdı:** "Müxalifət hakimiyyət strukturlarında təmsil olunmalı, məsuliyyətin altına çiynini qoymağı bacarmalıdır. Hökumət bunu etsə, daha yaxşı olar. Bunlar olmadığı sürəcdə, müxalifət bu cür proseslərə hazırlıqlı olmalıdır. Çünki hakimiyyət qədər müxalifət də xalqın məsuliyyətini daşıyır".

❑ **Cavanşir ABBASLI**

## Elxan Mehdiyevdən iqtidar rəsmisinə etiraz

### "Novruz Məmmədovun bizlər kimi həyatı dağılmayıb, məhv olmayıb..."

**"Novruz Məmmədov nəhayət, bu hökumətin əsl niyyətini ortaya qoydu. "Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, əslində, Azərbaycandan çox Ermənistana lazımdır". Deməli, bizə lazım deyil. Amma Novruz Məmmədov, bu, Ermənistana heç lazım deyil".**

Əslən Qubadlı rayonundan olan politoloq Elxan Mehdiyev bu fikirləri Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədovun fikirlərinə reaksiyasında deyib. Musavat.com-un xəbərinə görə, E.Mehdiyev ardınca bildirib: "Ermənistanın bütün prezidentləri məsələni həll etdiklərini deyiblər. İstədiklərindən iki dəfə çox torpaq da tutublar. Torpaqlarımızı əkib becərir, məskunlaşdırır, hərbi təlimlər keçir, balıqlarımızı yeyir, çaylarımız üzərində elektrik stansiyaları tikirlərEBütün işğal əraziləri isə Ermənistanın bütün xəritələrinə "Ermənistan" kimi salınıb. Əlbəttə, bu, Novruz Məmmədova və o, "biz" dediyi dairələrə lazım deyil. Amma bizə lazımdır. Çünki onun və onların Vətəni işğal edilməyib, evləri yer üzündən silinməyib, qəbristanlığı dağıdılmayıb, valideynləri, kəndliləri, müəllimləri, dostları qaçqınlıqda ölməyib və qalan qardaş-bacıları çöllərdə qalmayıb. Novruz Məmmədovun bizlər kimi həyatı dağılmayıb, məhv olmayıb..."

Politoloq sonda sual edib: "Bu düşüncəyə sahib hakimiyyət yetkilisi hansı mənəvi haqla Azərbaycan adından danışır? Dediyi sözlərə məsuliyyət daşıyırmı?"

Qeyd edək ki, PA rəsmisi prezidentlərin son görüşünü dəyərləndirərkən deyib ki, Ermənistan tərəfi münaqişənin həlli ilə bağlı konkret addımlar atmaq, konstruktiv mövqeyə gəlmək istəmir: "Əslində bu onlara bizdən daha çox lazımdır. Onlar düşünməlidirlər ki, bu cür vəziyyətdə qalmaq mümkün deyil. Biz də, beynəlxalq ictimaiyyət də çox yaxşı başa düşür ki, Ermənistan rəhbərliyi bu gün öz maraqlarına bütün bu prosesləri qurban verir".

**Biz də etiraf edirik ki, hörmətli Elxan bəyin reaksiyası emosionaldır, iqtidar rəsmisi ciddi şəkildə suçlanıb. Ona görə də N.Məmmədov məsələ ilə bağlı izahat xarakterli təkrar açıqlama vermək istəsə, onu da dərc etməyə hazırıq.**

❑ **Cavid TURAN**






## Qubada da bahalaşma əleyhinə etiraz aksiyası keçirildi

**Yanvarın 15-də axşam saatlarında bir qrup sakin Quba şəhərinin mərkəzində bahalaşmaya etiraz olaraq aksiya keçirib. Sosial şəbəkələrdə yayılan video və fotolardan aydın olur ki, şəhərə Daxili Qoşunların əsgərləri daxil olub və aksiyaçıları dağıdıb.**

Qəzetimiz çapa gedən saatlarda Qubada sakitlik hökm sürdüyü, polisin və Daxili Qoşunların şəhərin mərkəzinə nəzarət etdiyi bildirilirdi.

## Füzuli RİH başçısının şəhər üzrə nümayəndəsinin evindən silah tapılıb

**Baş Prokurorluq Füzuli rayonunda baş verən hadisələrlə bağlı saxlanılanların olması barədə yayılan məlumatlara münasibət bildirib. Qurumun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov APA-ya açıqlamasında bildirib ki, Füzuli Rayon İcra Hakimiyyəti (RİH) başçısının Füzuli şəhəri inzibati dairəsi üzrə nümayəndəsi Şakir Hacıyevin yaşadığı mənzildə axtarış aparılarkən "Makarov" tipli tapança və həmin silaha aid patronlar aşkar edilib.**

Faktla bağlı Bakı şəhər Baş Polis İdarəsinin İstintaq və Təhqiqat İdarəsində Cinayət Məcəlləsinin 228.1-ci *(qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə)* maddəsi ilə cinayət işi başlanıb, istintaqın aparılması Bakı Şəhər Prokurorluğunun İstintaq İdarəsinə həvalə edilb.

Ş.Hacıyev istintaq edilən cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

E.Sultanov Füzuli hadisələri ilə bağlı iki polis əməkdaşının həbs edilməsi barədə yayılan məlumatların isə doğru olmadığını qeyd edib.

"Bəzi Kütləvi İnformasiya vasitələri Füzuli rayonunda keçirilən aksiya ilə bağlı Füzuli Rayon Polis Şöbəsinin əməkdaşı Samir Məhərrəm oğlu Səfərov və Binəqədi Rayon Polis İdarəsinin əməkdaşı İlkin Vidadi oğlu İsmayılovun həbs olunması barədə xəbərlər yalandır. Bu informasiyanın heç bir əsası yoxdur".

Bunu isə müsavat.com-a açıqlamasında **DİN-in mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov** dedi. O bildirdi ki, bu informasiya yayılandan sonra araşdırma aparılıb, hər iki polis əməkdaşı ilə əlaqə saxlanılıb: "Bu xəbər kökündən yanlışdır. Adları çəkilən şəxslər həbs olunmayıb. Onlar hazırda xidməti vəzifələrini icra edirlər".



## Eldar Sabiroğlunun prokurorluqdan qovulan oğlu həbs olundu

**YAP-çı, «91-lər»in üzvü, keçmiş deputat və Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri olmuş Eldar Sabiroğlunun oğlu Rüfət Səfərovun barəsində Binəqədi Rayon Məhkəməsinin qərarı ilə 3 aylıq həbs-qətimkan tədbiri seçilib.**

Xatırladaq ki, bir müddət əvvəl prokurorluq orqanlarından xaric edilən Zərdab Rayon Prokurorluğunun müstəntiqi Rüfət Səfərov barəsində cinayət işi başlanılmışdı.

Cinayət işi Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 311-ci (rüşvət alma) maddəsi ilə başlanıb.

Qeyd edək ki, R. Səfərov bir müddət əvvəl "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 34-cü və "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış Kodeksi"nin 30 və 31-ci maddələrinin tələblərini kobud surətdə pozaraq prokurorluq orqanlarında prokuror və ya müstəntiq vəzifəsi ilə bir araya sığmayan hərəkətlərə yol verdiyinə görə prokurorluq orqanlarından xaric olunub.

R.Səfərov işdən azad ediləndən dərhal sonra Zərdab Rayon Prokurorluğunda icra və əmək intizamının, eləcə də prokurorluq əməkdaşlarına qarşı tələbkarlığın vəziyyətinin aşağı səviyyədə olması ilə əlaqədar Baş Prokurorluğun müvafiq komissiyası tərəfindən kompleks yoxlamalara başlanıb.

**Yoxlamaların nəticəsi olaraq baş prokuror Zakir Qaralovun imzaladığı müvafiq əmrlə Zərdab rayon prokuroru Süleyman Süleymanov rayon prokurorluğunun işinin təşkilində yol verdiyi nöqsanlara görə tutduğu vəzifədən azad edilib.**

## Düzəliş

**"Yeni Müsavat" qəzetinin 15 yanvar saylı buraxılışında "Məcburi köçkünlərə bəd xəbər: bir sıra güzəştlər ləğv ediləcək" başlıqlı yazıda həmin məsələ ilə bağlı Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndəsinin fikirləri texniki olaraq yanlış formada gedib. Əslində Komitənin nümayəndəsi bildirmişdir ki, "bu haqda məndə heç bir məlumat yoxdur".**

## Müxalifətin böyük toplantısına hazırlıq gedir

### 24 yanvara planlaşdırılan toplantıya YAP təmsilçiləri də dəvət ediləcək

**Yanvarın 24-də bütün müxalifət düşərgəsinin, ayrı-ayrı nüfuzlu ictimai xadimlərin toplantısının keçirilməsi planlaşdırılır. Bu barədə "Ağ Blok"un həmtəsisçisi Tural Abbaslı "Yeni Müsavat"a məlumat verib. Onun dediyinə görə, toplantının məqsədi ölkədə yaranmış vəziyyəti birgə müzakirə etmək, çıxış yolları istiqamətində vahid mövqeyə gəlməkdir: "Özünü müxalifət hesab edən bütün qüvvələrin iştirakı üçün açıq olan belə bir tədbir nəzərdə tutulub. Burda təşəbbüsçülər var, amma bu, hansısa konkret təşkilatın tədbiri deyil. Orada iştirak edəcək hər bir təşkilat və şəxs eyni statusludurlar. Odur ki, şəxsi siyasi ambisiyaları, şəxsi eqoları kənara qoyub Azərbaycan və xalq naminə bir araya gəlməyi bacarmaq lazımdır. Bu təşəbbüsdə iştirak eləyənlər sırasında KXCP sədri Mirmahmud Mirəlioğlu, AXP sədri Pənah Hüseyn və digərləri var. Hazırda danışıqlar gedir, sıra genişlənir".**

T.Abbaslının sözlərinə görə, toplantının ADP-nin böyük zalında saat 2-də keçirilməsi nəzərdə tutulub. Toplantıya hətta hakimiyyət nümayəndələrinin də dəvəti nəzərdə tutulur: "YAP rəsmiləri Siyavuş Novruzov və Aydın Mirzəzadə mətbuata bildiriblər ki, hakimiyyət, hakim partiya təklifləri dinləməyə hazırdır. Ona görə də hesab edirik ki, onlar da 24 yanvarda keçiriləcək toplantıya gəlsinlər, təklifləri dinləsinlər, özlərinin sözləri varsa ifadə etsinlər. Bu, ümumi problemlərin həlli istiqamətində atılmış ilk konstruktiv addım kimi qiymətləndirilsin".

❑ **E.SEYİDAĞA**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;

- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;

- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

YENİ MÜSAVAT
N 11 (6332) 16 yanvar 2016



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Yanvarın 15-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində *(KQMBİ)* 2015-ci ildə görülən işlərlə bağlı mətbuat konfransı keçirilib. İdarə rəisi Kamran Əliyev bildirib ki, ötən il ərzində idarəyə 10 min 654 vətəndaş müraciət edib. 7 min 266 müraciət qurumda fəaliyyət göstərən "Qaynar xətt" əlaqə mərkəzi vasitəsi ilə daxil olub. 2 min 100 müraciət müsbət həll edilib, 30 müraciət üzrə CM-in müxtəlif maddələri ilə cinayət işi başlanıb. K.Əliyev deyib ki, Baş İdarədə 2 min 614 vətəndaş qəbul edilib.**

# Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2015-ci ilin hesabatını verdi

## İdarənin rəisi Kamran Əliyev korrupsioner məmurlardan danışdı

İdarə rəisi bildirib ki, ötən il 14 əməliyyat tədbiri nəticəsində 16 vəzifəli şəxs cinayət başında yaxalanıb. KQMBİ-nin təqdimatları əsasında 169 vəzifəli şəxs intizam məsuliyyətinə cəlb edilib. İdarə rəisi vəzifəli şəxslərin hansı nazirliklərin nümayəndələri olduğunu da açıqlayıb. Məlum olub ki, 2015-ci ildə Səhiyyə Nazirliyi üzrə 42, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə 28, Təhsil Nazirliyi üzrə 13, Daxili İşlər Nazirliyi üzrə 48, Müdafiə Nazirliyi üzrə 1, Fövqəladə Hallar Nazirliyi üzrə 1, Gömrük Komitəsi üzrə 1 və digər dövlət qurumları üzrə 35 vəzifəli şəxs tutulub. Ötən il ərzində Baş İdarə tərəfindən 295 şəxs barəsində 200 cinayət işi məhkəməyə göndərilib. Həmin işlər üzrə vurulmuş 143 milyon 883 min manat ziyandan ibtidai araşdırma mərhələsində 36 milyon 101 min manat ödənilib. İstintaqı başa çatdırılmış 5 cinayət işi üzrə cəmi 43 milyon 654 min manat dəyərində əmlak üzərinə həbs qoyulub.

Baş idarə rəisi statistik məlumatları açıqladıqdan sonra mətbuat nümayəndələrinin suallarını cavablandırıb. 2004-cü ildə yaradılan idarədə baş tutan mətbuat konfransına ilk dəfə idi ki, "Yeni Müsavat" qəzetinin əməkdaşı da dəvət edilmişdi. Digər KİV nümayəndələri kimi biz də Kamran Əliyevə sual vermək imkanı qazandıq. Ümumilikdə mətbuat konfransında verilmiş sual-cavabları da təqdim edirik:

***- Mətbuat vasitəsi ilə yayılan məlumatlar araşdırılırmı? Həmin araşdırmaların nəticəsi olaraq cinayət işləri başlanırmı?***

**Kamran Əliyev:**

- Bütün mətbuat orqanları gündəlik olaraq tərəfimizdən izlənir. Mətbuatda gedən məlumatların daim monitorinqi aparılır. Baş İdarədə 5 cinayət işi var ki, konkret olaraq mətbuatda gedən məlumatlara əsasən başlanıb. Onlardan biri "Yasamal MTK" ilə bağlıdır. Hazırda həmin işlə bağlı intensiv araşdırmalar aparılır. Bundan başqa da icraatda mətbuatda gedən məlumatlarla bağlı aparılan araşdırmalar var. Biz mətbuata hörmətlə yanaşırıq, yayılan məlumatları diqqətlə izləyirik. Qərəzli, kimisə təhqir etmək məqsədi ilə bağlı yazılar təbii ki, digər mövzunun predmetidir.

***- Azərbaycanda korrupsiya cinayətləri niyə azalmır?***

- Korrupsiya cinayətləri ilə bağlı ona deyə bilərəm ki, bu proseslər var. Son 10 ilə nəzər yetirsək, təhlil etsək, görərik ki, ölkə rəhbərliyinin həyata keçirdiyi qanunverici, inzibati, təşkilati tədbirlər nəticəsində bu gün artıq bir çox korrupsiya cinayətləri mövcud deyil. Və əksinə. Yeni iqtisadi proseslər korrupsiya cinayətlərinin yeni formalarının ortaya çıxmasına səbəb olur. Bu bütün dünya ölkələrində, ABŞ-da, Avropada da belədir. Azərbaycanda "ASAN xidmət" mərkəzləri yaradılmaqla korrupsiya cinayətlərinin bir çoxu 1 günün içində aradan qaldırıldı. Bu təcrübəni biz gələcəkdə də davam etdirməliyik.

***- Monopoliya korrupsiya cinayəti kateqoriyasına daxildirmi?***

- Monopolistlər, işbazlarla bağlı sahədə də işlər gedir, araşdırma aparırıq. Onların fəaliyyətini qanunlarla, hüquqi baxımdan sübuta yetirmək mürəkkəb məsələdir. Bu o demək deyil ki, mümkün deyil. Biz işləyirik, siz yəqin ki, belə hallarla bağlı cinayət işlərinin olacağını da görəcəksiniz. Burada mal qıtlığı ilə bağlı söhbət açıldı. Süni qiymət artımını, mal qıtlığını kim yarada bilər? Ancaq monopolist şirkətlər edə bilər. Deyək ki, mən monopolistəm, ölkəyə dərmanı, konkret strateji məhsulu mən gətirirəm, rəqabət olmadığı üçün istənilən qiyməti müəyyən edə bilərəm. Təbii ki, belə hallar olur. Süni mal qıtlığı yaratma elə inhisarçılıq deməkdir. Bununla bağlı mübarizə gücləndiriləcək.

***- Zərdab prokurorluğunun müstəntiqi Rüfət Səfərovla bağlı cinayət işi başlanıb?***

- Rüfət Səfərovun konkret əməlləri ilə bağlı araşdırma aparılıb və barəsində cinayət işi istintaq olunur. Cinayət işi onun dediyi ilə, söylədikləri ilə bağlı deyil. Barəsində cinayət işi rüşvətxorluq maddəsi ilə bağlanıb.

***- "MTN işi" üzrə istintaq edilən işlərlə bağlı vəziyyət nə yerdədir?***

- "MTN işi" ilə bağlı KQMBİ-də araşdırma aparılmır. Baş İdarədə Rabitə Nazirliyinin vəzifəli şəxslərinin işi üzrə araşdırma aparılır.

***- Devalvasiyadan sonra ölkədə süni qiymət artımı müşahidə olunur. Bunun qarşısını almaq üçün hansı tədbirlər görülür?***

- Süni qiymət artımı ilə bağlı ictimai nəzarət vacibdir. 2016-cı ilin ilk günlərindən başlayaraq hər gün "Qaynar xətt"ə müraciətlər daxil olur. Təkcə yanvarın 14-də "Qaynar xətt"ə rayonlardakı böyük ticarət mərkəzlərində süni qiymət artımı ilə bağlı 10-a yaxın müraciət daxil olub. Həmin müraciətlərə də araşdırılır. Bu məsələlərə çox həssaslıqla yanaşılır. Müraciət müəlliflərinə zəng edib konkret soruşuruq ki, qiymət artımı nədə baş verib. Əgər müəyyən olunur ki, konkret halda qiymət artımı "qırmızı xətti" keçib, tədbir görülür. Peşəkar iş adamları belə hallara yol vermirlər. Biz maliyyə qurumları ilə təhlil aparıb devalvasiyanı nəzərə almaqla süni qiymət artımı hallarını müəyyən edirik. Dərman preparatları var ki, onlar ölkəyə gətiriləndə 10 manata rəsmiləşdirilir, burada 500-600 manata satılırsa, buna süni qiymət artımından başqa ad vermək olmaz. Ümumilikdə yaranmış iqtisadi situasiyadan sui-istifadə halları var.

***- Deputat Fəazil Ağamalı həmkarları Əsabil Qasımov və Tahir Süleymanovun monopolist olduqlarını dedi, unu bahalaşdırdıqlarını açıqladı. Mətbuatda deputatın dedikləri ilə yaqın ki, tanışsınız. Bu məsələ araşdırılacaqmı?***

- Məlumatlıyıq. Hörmətli Milli Məclis üzvlərinin öz fikirlərini demək, söyləmək hüquqları var. İki deputat barəsində fikir səsləndirilib. O hallarla bağlı konkret olaraq hər hansı inhisarçılığın müəyyən olunması, süni qiymət artımı, həmin şirkətlər tərəfindən manatın məzənnəsi dəyişəndən sonra süni qiymət artımı halı müəyyən edilməmişdir. Bizdə olan məlumatlara görə, həmin şirkətlər əla növ unun topdansatış qiymətini 26 manat müəyyən ediblər. Ola bilər ki, onlardan unu alandan sonra hər hansı bir kəndə aparıb daha baha qiymətə satırlar. Artıq ölkə rəhbərliyi un məhsulları ilə bağlı göstəriş verib və hesab edirəm ki, bu un və çörək kimi strateji məhsulların qiymətinin stabilləşməsinə təsir edəcək.

***- Fəzail Ağamalı həmin açıqlaması ilə hər iki deputatın həm də biznesla məşğul olduqlarını açıqlamış oldu. Məsələnin bu tərəfi araşdırılacaqmı?***

- Ola bilər ki, hər bir şəxs deputat olana qədər hər hansı bir işlə məşğul olub. Biznesmenin də deputat seçilmək hüququ var. Biz baxmalıyıq ki, bu nə dərəcədə sübut olunur ki, həmin şəxslərin öz adına rəsmi şirkət var, yoxdur. Bu kifayət qədər hüquqi məsələlərdir ki, araşdırma və sübutetmə tələb edir.

***- Mətbuatda rayon icra hakimiyyəti başçılarının sahibkarları, vətəndaşları incitməsi haqda məlumatlar var. Belə məlumatların böyük əksəriyyətindən aydın olur ki, KQMBİ-nə olunan müraciətlər, ərizə və şikayətlər başçıların üstünə qayıdır. Bundan sonra başçı şikayət edənləri incidir. Belə bir sistem mövcuddur ki, şikayətlər icra başçılarına göndərilir?***

- "Qaynar xətt" əlaqə mərkəzinə daxil olan məlumatlarda hər hansı bir rayonun icra nümayəndəsi, ərazi icra nümayəndəsindən, hər hansı bir şöbənin müdirindən şikayət daxil olursa, orada birbaşa korrupsiya cinayəti yoxdursa, süründürməçiliklə bağlıdırsa, biz bunu icra başçısının özünə göndəririk ki, məsələ araşdırılsın, bizə nəticə barədə məlumat verilsin. Əgər belə hallar dəfələrlə olursa, icra başçısına göndəririksə, nazirliyə göndəririksə, məsələ həll olunmursa, bu halda KQMBİ-də araşdırılırıq. Əvvəlki araşdırmaları icra hakimiyyətində, nazirlikdə kimin apardığını, araşdırma işini tələb edirik. Əgər şikayətin kimdən olduğu şəxsə göndərildiyi halı müəyyən edilirsə, bu halda çox ciddi tədbir görülür. 2015-ci ildə 5 cinayət işi yerli icra hakimiyyətləri ilə bağlı olub və 9 nəfər vəzifəli şəxs barəsində məhkəmələrə işlər göndərilib.



***- Binəqədidəki 16 mərtəbəli bina yandı. Məsələyə prezident səviyyəsində reaksiya verildi. Amma nəticədə JEK müdiri, qoca bir kişi tutuldu...***

- 16 mərtəbəli bina ilə bağlı 1 nəfərin məsuliyyətə cəlb olunduğunu demək haqsızlıq olardı.

***- 1 nəfər vəzifəli, qalanları aşağı vəzifəli şəxslər həbs ediliblər. İcra başçısının icazəsi olmadan həmin penoplastı ora vura bilməzdilər?***

- Xeyr, belə deyil, məhz bu iş üzrə kifayət qədər vəzifəli şəxslər həbs olunub.

***- Mənzil Tikinti Kooperativlərindəki dələduzluq məsələləri ilə bağlı hansı işlər görülür?***

- Belə hallar son zamanlar, mətbuatda işıqlandırılandan sonra demək olar ki, yoxdur. Ola bilər ki, çox əvvəlki illərdə baş vermiş əməllərlə bağlı məlumatlar verilir, bu məsələlər də araşdırılır. Müvafiq qurumlara da müraciət etmişik ki, mənzillərin bir ünvandan satılması təşkil edilsin, mənzil almaq istəyənlər də bilsinlər ki, həmin ünvandan alınan mənzillər problemsiz mənzillərdir.

❑ **E.MƏMMƏDƏLİYEV**





## Bir neçə partiya iqtisadi böhranı müzakirə etdi

**Pənah Hüseyn:** "Bir araya gələsək, bəlkə bu bəladan az zərərlə qurtararıq"
**Mirmahmud Mirəlioğlu:** "İqtisadi böhran tezliklə siyasi böhranla əvəzlənəcək"

**Yanvarın 15-də "Azadlıq" Siyasi Partiyalar Əməkdaşlıq Mərkəzi ölkədəki iqtisadi böhanla bağlı dəyirmi masa keçirib. Musavat.com xəbər verir ki, tədbirdə KXCP, AXP, "Azadlıq", AMİP və digər partiyaların rəhbərləri iştirak ediblər.**

**KXCP sədri Mirmahmud Mirəlioğlu** məsələ ilə bağlı bildirib ki, dəyirmi masaya qədər bu partiyalar görüşlər keçirərək, müzakirələr aparıblar: "Biz bir sıra qərarlar əldə etmişik. Hakimiyyətin yarıtmaz siyasətinə etiraz aksiyalarının keçirilməsi də müzakirə edilib. Həmçinin, böhranın qarşısının alınması üçün təcili antiböhran tədbirlərinin keçirilməsini tələb etmişik. Biz müxalifətlə iqtidar arasında dialoqun baş tutması və nəticələrin əldə edilməsi üçün dialoqda hakimiyyəti dövlət başçısının təmsil etməsini məqbul saymışıq. Böhrandan çıxış yollarını hakimiyyətlə birgə müzakirə etmək mümkündür. Amma hakimiyyət bundan qaçır. İqtisadi böhran tezliklə siyasi böhranla əvəzlənəcək. Biz bundan təlaşımızı, narahatçılığımızı ifadə etsək də, hakimiyyətdə bunu görmürük".

**KXCP sədri iqtisadi vəziyyətlə, bizneslə bağlı qüvvəyə minən son qanunların biznesə bağlı geri oxunduğunu diqqətə çatdırıb. O, əlavə edib ki, bölgələrdə baş verən etiraz aksiyalarından sorna hökumət una, taxıla əlavə dəyə vergisini götürməli olub:** "Əhalini aldadaraq bu işi gördü. Baş verənlər monopoliyanın nəticəsidir, Azərbaycan hakimiyyətinin mahiyyətinin nəticəsidir. Bu rejim dəyişməyənə qədər problemlərimiz olacaq".

**"Azadlıq" Partiyasının sədri Əhməd Oruc** qeyd edib ki, ölkədəki böhran iqtisadi deyil, sistem böhranıdır: "Biz bir ilə yaxın davam edən dialoqlar zamanı da bunu hakimiyyətə çatdırdıq, neftdən asılılıqdan narahatlığımızı bildirdik. Ancaq hakimiyyət islahatlara getmədi. Dialoq hazırda da ən ağıllı mövqedir. Siyasi partiyaların bir araya gəlməsinə ehtiyac var".

**AXP sədri Pənah Hüseyn** isə qeyd edib ki, baş verənlərdə birbaşa hakimiyyət məsuliyyət daşıyır: "Biz öz haqları uğrunda mübarizəyə çıxan insanlarla həmrəylik nümayiş etdirməliyik. Son həbslərə və repressiyalara etiraz olunmalıdır". O, həmçinin əhalinin kredit problemindən danışıb vəziyyətin ciddiliyini vurğulayıb: "Burada hamınız təkliflər verirsiz. Bu təklifləri həyata keçirməyə pul yoxdur. Bizi faktiki olaraq oğrular idarə edir, ölkənin sərvətini oğurlayıblar. Təklifim budur ki, onların qarşısına xalqın mütəşəkkil təşkil olunmuş gücünü qoyaq. Bunu etməsək, ölkədə heç nə olan deyil. Biz bir araya gəlsək, bəlkə bu bəladan az zərərlə qurtararıq". O, həmçinin dövlət başçısına müraciət etməyi təklif edib.

**Digər çıxış edənlər də müxtəlif təkliflər səsləndiriblər. Dəyirmi masa iştirakçıları yanvarın 24-də toplaşaraq yenidən müzakirə aparmağı qərara alıblar.**

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

**Devalvasiyadan sonra ölkənin regionlarında sosial narazılıqlar genişlənib, aksiyalar başlanıb. Etiraz edənlərin tələbləri sosial məsələlər və problemlərdir. Ekspertlər isə bildirirlər ki, ölkənin bu duruma düşməsinin səbəblərindən biri də illər boyu regionların inkişafına ayrılan milyonlarla manat vəsaitin mənimsənilməsidir.**

# Regionların inkişaf layihələri-milyonlar hara gedib?

Ekspertlər bildirirlər ki, illər boyu bölgələrə ayrılan milyonların mənimsənilməsi bu gün ağır və qarşısıalınmaz durum yaradıb...



Natiq Cəfərli

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a bildirib ki, 2000-ci illərin əvvəllərindən 2015-ci ilə qədər artıq 3 belə layihə qəbul olunub: "Hər biri 5 illik dövrü əhatə edir. Bu layihələrə yüz milyonlarla pul xərclənsə də, heç bir effekt verməd, verə də bilməzdi. Çünki o layihələrin obyekti əlavə dəyər yarada biləcək və iqtisadi canlanma yarada biləcək məsələlər deyildi. O layihələrin mahiyyəti sadəcə regionlarda müəyyən infrastrukturlarda dəyişikliklərin olunması və müəyyən dərəcədə abadlıq işlərinin görülməsindən ibarət idi. Səhv yanaşma idi. Ona görə effekt vermədi. Müvəqqəti olaraq müəyyən iş yerləri yarandı. Rayonların mərkəzi hissələr, küçələr qaydaya qoyuldu. Müəyyən infrastruktur layihələri həyata keçirildi. Bunları da görmək lazım idi. Çünki sovetdən qalma infrastruktur idi regionlarda. Amma paralel olaraq regionların inkişafı əsasən 2-3 parametrlərlə ölçülməli idi. Yəni regionlar inkişaf etdikcə, onların büdcənin formalaşmasında payı artmalı idi, ümumdaxili məhsul formalaşmasında, xarici ticarətdə, ixracatda payı artmalı idi. Amma son 15 ildə bütün bu indikatorlara görə regionlar geridə qaldı, heç birində artım müşahidə olunmadı. Əksinə, azalmalar oldu. İndi təsəvvür edin ki, regionların Azərbaycanın büdcəsinin formalaşmasında rolu 3 faizə yaxındır. Xarici ticarətdə bir faizə yaxındır. Çox aşağı göstəricilərdir. Azərbaycanın həm büdcəsinin formalaşmasında, həm ümumdaxili məhsulun formalaşmasında, xarici ticarətdə Bakı və Abşeron dominant rola malikdir. Yəni az qala yüz faizi burada formalaşır. Bu isə disbalans yaradır. Regionların inkişafında əhəmiyyətli dərəcədə dirçəlişə nail olmaq mümkün olmadı. Bu da regionlarda iş tapmayan adamların əksinə, paytaxta köç etməsinə səbəb oldu".

**Ekspert Qubad İbadoğlu** isə qeyd edib ki, 2004-2014-cü ildə regionların inkişafına 31,5 milyard manat vəsait ayrılıb. "Məsələn, Siyəzən rayonunda 2015-ci ilin əvvəlinə olan məlumata görə, 40,5 min nəfər əhalisi olan siyəzənlilərin 66 faizi şəhərdə yaşayır. Rəsmi statistik məlumata görə, 25 min əmək qabiliyyətli əhali olan rayonda iqtisadiyyatda muzdla işləyənlərin sayı 6,6 min nəfərdir. Torpaq payları olanları nəzərə almasaq, hazırda rayonda işsizlik səviyyəsi 80 faizə yaxınlaşıb. İşləyənlərin orta aylıq əmək haqqı 2015-ci ilin əvvəlinə 362 manat 70 qəpik, ya hazırkı rəsmi məzənnə ilə 212 dollar olub. Siyəzənlilər əsasən 13 müəssisədə çalışıblar ki, devalvasiyadan sonra həmin müəssislərin əksəriyyəti işçilərini ixtisar etsələr də, maliyyə vəziyyətləri getdikcə pisləşməkdədir. Rayon ərazisinə və relyefinə görə kənd təsərrüfatı üçün yararlı və münbit torpaqlara malik deyil. Belə ki, rayonda cəmisi 25 hektar ərazidə kartof, 88 hektar ərazində bostan bitkiləri, 126 hektar ərazidə tərəvəz və 194 hektar ərazidə isə meyvə becərilir. Rayonun ən böyük sosial problemi iş yerlərinin məhdudluğudur. 2015-ci il üçün rayonun yerli büdcəsi 8,8 milyon manat təsdiq olunub".

**Həmçinin, 2015-ci ilin əvvəlinə olan məlumatuna görə, Ağcabədi rayonunun 130 min əhalisi olub ki, onların da 39 faizi kənddə yaşayır.** "Rəsmi statistik məlumata görə, 80 min əmək qabiliyyətli əhalisi olan rayonda iqtisadiyyatda muzdla işləyənlərin sayı 13,6 min nəfərdir. Torpaq payları olanları nəzərə almasaq, hazırda rayonda işsizlik səviyyəsi 80 faizi ötüb. İşləyənlərin orta aylıq əmək haqqı 2015-ci ilin əvvəlinə 244 manat 60 qəpik, ya hazırkı rəsmi məzənnə ilə 144 dollar təşkil edib. Ağcabədililər üçün iş yerləri rayon ərazisində yerləşən 12 sənaye müəssisəsi və kənd təsərrüfatı olub ki, devalvasiyadan sonra sənaye müəssisələri iflic vəziyyətinə düşüb və onların hamısı fəaliyyətini məhdudlaşdırıb, bir neçəsi faktiki olaraq işini dayandırıb. Kənd təsərrüfatında isə rentabellik və məhsuldarlıq problemləri bu sahədə çalışanların qazanclarını azaldıb, devalvasiya nəticəsində azalmış qazanclar daha da dəyərsizləşib. 2015-ci il üçün rayonun yerli büdcəsi 25,7 milyon manat təsdiq olunub" deyə, ekspert qeyd edib.



Qubad İbadoğlu

2015-ci ilin əvvəlinə olan məlumata görə, Ucar rayonunun 84 min əhalisi olub ki, onun da yalnız 22 faizi şəhərdə yaşayır. Rəsmi statistik məlumata görə, 53 min nəfər əmək qabiliyyətli əhalisi olan rayonda iqtisadiyyatda muzdla işləyənlərin sayı 7,2 min nəfərdir. Torpaq payları olanları nəzərə almasaq, hazırda rayonda işsizlik səviyyəsi 90 faizə yaxınlaşır. İşləyənlərin orta aylıq əmək haqqı 2015-ci ilin əvvəlinə 252 manat 50 qəpik, ya hazırkı rəsmi məzənnə ilə 148 dollar təşkil edib. "2014-cü ildə Ucarda 9 sənaye müəssisə fəaliyyət göstərib ki, onların hamısı fəaliyyətini məhdudlaşdırıb, bir neçəsi faktiki olaraq işini dayandırıb. Rayonda əsas məşğuliyyət kənd təsərrüfat hesab olunur, lakin torpaqların şoranlaşması bu rayonda kənd təsərrüfatının gəlirliyinin xeyli azaldıb, son devalvasiya isə gəlirləri daha da dəyərsizləşdirib. 2015-ci il üçün rayonun yerli büdcəsi 16,3 milyon manat təsdiq olunub",- deyə ekspert vəziyyəti izah edib.

Onun sözlərinə görə, 2015-ci ilin əvvəlinə olan məlumata görə, Füzuli rayonunun 125 min əhalisi olub ki, onun da yalnız 25 faizi şəhərdə yaşayır: "Rəsmi statistik məlumata görə, 81 min nəfər əmək qabiliyyətli əhalisi olan rayonda iqtisadiyyatda muzdla işləyənlərin sayı 10,8 min nəfərdir. Torpaq payları olanları nəzərə almasaq, hazırda rayonda işsizlik səviyyəsi 85 faizdən yuxarıdır. İşləyənlərin orta aylıq əmək haqqı 2015-ci ilin əvvəlinə 254 manat 70 qəpik, ya hazırkı rəsmi məzənnə ilə 149 dollar təşkil edib. 2014-cü ildə Füzulidə 9 sənaye müəssisə fəaliyyət göstərib ki, onların hamısı fəaliyyətini məhdudlaşdırıb, bir neçəsi faktiki olaraq işini dayandırıb. Rayonda əsas məşğuliyyət kənd təsərrüfat hesab olunur. 2015-ci il üçün rayonun yerli büdcəsi 30,2 milyon manat təsdiq olunub".

**Eyni zamanda, 2015-ci ilin əvvəlinə olan məlumata görə, Lənkəran rayonunun 220 min əhalisi olub ki, onun da 41 faizi şəhərdə yaşayır. "Rəsmi statistik məlumata görə, 143 min nəfər əmək qabiliyyətli əhalisi olan rayonda iqtisadiyyatda muzdla işləyənlərin sayı 22,1 min nəfərdir. Torpaq payları olanları nəzərə almasaq, hazırda rayonda işsizlik səviyyəsi 85 faizdən yuxarıdır. İşləyənlərin orta aylıq əmək haqqı 2015-ci ilin əvvəlinə 261 manat 30 qəpik, ya hazırkı rəsmi məzənnə ilə 154 dollar təşkil edib. 2010-cü ildə Lənkəran rayonunda 40, 2014-cü ildə isə 32 sənaye müəssisə fəaliyyət göstərib ki, onların da əksəriyyətinin maliyyə vəziyyəti son devalvasiyadan sonra pisləşib və iş yerlərinin ixtisarları başlayıb. 2015-ci il üçün rayonun yerli büdcəsi 37,7 milyon manat təsdiq olunub"deyə, Q.İbadoğlu vurğulayıb.**

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 11 (6332) 16 yanvar 2016

**Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev "Yeni Müsavata" müsahibəsində manatın devalvasiyasından sonra ölkədə baş verən proseslərdən danışıb. Həmçinin rəhbərlik etdiyi rayonda əhalinin sosial vəziyyəti ilə bağlı açıqlamalar verib. O bildirib ki, hazırda Daşkəsəndə xalqın arasındadır və onlarla görüşlər keçirir:**

- Rayonda hava şəraiti qarlı olsa da elə bu gün insanlarla görüşmüşəm. Artıq müəyyən problemli məsələlər öz həllini tapıb. Ən əsası da unun və çörəyin ucuzlaşmasına özüm birbaşa nəzarət edirəm. Rayonda bununla bağlı 15 nəfərdən ibarət komissiya da yaratmışıq. Bu komissiya ilə birlikdə yerlərdə camaatla görüşürük.

***- Görüşlərdə insanlar sizə nə deyirlər? Problemlərinin nə olduğunu söyləyirlər?***

- Yəni bu gün hər kəs başa düşür ki, dünyada xristian-müsəlman davası gedir. O cümlədən də dolların qiymətini qaldırmaqla, nefti ucuzlaşdırmaqla təxribat yönlü işlərlə məşğul olanlar var. Buna görə də hər kəs bir nəfər kimi ölkə rəhbərinin ətrafında sıx birləşib, prezidentin siyasətini dəstəkləyir. Camaatımızın dövlətə inamı böyükdü. Hamı bilir ki, krizisdən qısa müddət ərzində çıxacağıq.

***- Bir neçə rayonda etiraz aksiyaları keçirildi. Daşkəsən-***

mağa çalışır. Ona görə də vaxtın ayıldı və artıq sabitlik yaranıb.

***- Amma Daşkəsəndə sakitlik oldu. Heç kim etiraz etmədi qiymət artımı ilə bağlı. Bu nə ilə bağlıdır?***

- Daşkəsən ucqar dağ rayonudur. Hazırda yerdə yarım metrdən çox qar var. İnanın, mən bu insanlarda nə dövlətçilik, nə də xalq əleyhinə hal görmürəm. Əksinə, bizim camaat, kim mitinq edirsə, aksiya keçirirsə, onlara qarşı çox qəzəblə baxıb, nifrət edir. Ən çətin iqlim şəraitində olan bizik, burda sakitlikdir. Amma normal şəraiti - qazı, işığı, infrastrukturu olan rayonlarda aksiyalar keçirildi. Nə olub axı?

***- Bəlkə rayona rəhbərlik edən şəxslər xalqa qarşı pis davra-***


Daşkəsən, 15.01.2016

# "Dolların bahalaşmasının arxasında xristian-müsəlman davası dayanır"

## Əhəd Abıyev: "Belə bir vaxtda ad günü keçirmək heç yada da düşmür"

- Bu gün ən əsası odur ki, ölkədə sabitlikdir. Yəni hansısa yerdə təxribat yönümlü qruplaşma və digər bu kimi hallara rast gəlinmir. Bütün proseslər əvvəlki kimi öz axarı ilə gedir. Camaat başa düşür ki, bu, nəinki Azərbaycanda, dünyada gedən prosesdir. Yəni dolların bahalaşması ilə bağlı müəyyən çətinliklərlə üzləmişik. Bəzi fürsətçi adamlar bundan istifadə edib süni qiymət artımına gedirlər. Cənab prezident də son müşavirədə ciddi tapşırıq verdi ki, bu cür hallara qarşı amansız və barışmaz olmaq lazımdı. Çünki söhbət xalqın, dövlətin mənafeyindən gedir. Biz də rayonda müəyyən şəxslərə ciddi şəkildə tapşırıq vermişik ki, unun qiymətini qaldırmasınlar.

***- Tapşırığa əməl olunurmu?***

- Əlbəttə. Kimsə özbaşına qiymət artıra bilməz. Şəxsən özüm nəzarət edirəm bu prosesə.

***- Rayon camaatı nə deyir bəs bu olanlara?***

- İnanın, deyərdim ki, hazırkı vəziyyət, əksinə, camaatı doğmalaşdırdı.

***- Necə?***

***də bununla bağlı vəziyyət necədir?***

- Müəyyən adamlar var ki, onlar dövlətimizə müxalif olan qruplaşmalar yaradıblar. Hazırda elə vəziyyət yaranıb ki, bəzi şəxslər bundan istifadə etmək istəyir. Cənab prezident də çörək, un, ərzağın qiyməti ilə bağlı əhalinin xeyrinə olan çox yüksək səviyyəli tapşırıqlar verdi. Dövlətini sevən, Azərbaycanın gələcəyini düşünən şəxslər prezidentin ətrafında sıx birləşib, əlindən gələni əsirgəməməlidir. Görürsən ki, yerlərdə müəyyən qruplaşmalarda olan şəxslər, türmədə və ya digər cinayətkar dəstədə olan şəxslərin himayədarları çıxır. Bu vasitədən istifadə edirlər.

***- Yüzlərlə vətəndaşı cinayətkar, narkoman, araq düşkünü adlandırmaq doğrudurmu?***

- Yox, söhbət o etiraza çıxan şəxslərin hamısından getmir. Saf, təmiz insanları öz çirkin məqsədlərinə alət etməyə çalışan insanları nəzərdə tuturam. Xalqımız tez bir zamanda gördü ki, ortada ciddi təxribat var - kimlərsə xalqla dövləti üz-üzə qoy-

***nırlar və bu hal onunla bağlıdır?***

- Bu il mən rəy sorğusu nəticəsində ilin ən yaxşı icra başçısı nominasiyası üzrə qalib oldum. Buna çox sevinirəm. Çünki ilin başçısı olmağın özü bir şərəfdir. Camaat istəyib ki, seçilmişəm. Daşkəsəndə bir çox yeniliklər etmişik. Kəndlərə mavi qaz çəkmişik, iki körpü salmışıq, su-kanalizasiya sistemini yenidən qurmuşuq və sairə. Biz qısa müddətdə iki böyük körpünü tikib camaatın istifadəsinə verdik. Sərhəd kəndlərini birləşdirən körpülərdir. Onun açılışını da möhtərəm cənab prezidentin ad günündə, 24 dekabr, 2015-ci il tarixində etdik. İnsanlar da buna çox sevindi.

***- Bəzi hakimiyyət nümayəndələri bildirir ki, son günlər informasiya təxribatları baş verib. Yalançı xəbərlər yayılıb. Bu haqda nə deyə bilərsiz?***

- Hesab edirəm ki, bu cür gözlənilməz vəziyyətlərdə təkcə icra başçısı və ya deputatlar deyil, kütləvi informasiya vasitələri də böyük rol oynayır. Xəbəri necə təqdim etməkdən çox şey

asılıdır. Bir var olan hadisəni yazırsan, bir də var qızışdırıcı mövqedən çıxış edirsən. Bu prosesləri ən real və doğru işıqlandıran mətbuat orqanı kimi sizin qəzeti gördüm. Bu reallığa görə sizə dərin təşəkkürümü bildirirəm.

***- Əhəd müəllim, sirr deyilsə hazırda hardasız? Eşitdiyimizə görə bu gün doğum gününüzdür.***

- Gəlin bu mövzuya heç toxunmayaq. İndiki vaxtda ad günü keçirmək bizə yaraşmaz. Möhtərəm cənab prezident öz 50 illik yubileyini Ağcabədidə məcburi köçkünlərlə keçirdi. Biz də ondan nümunə götürməyə borcluyuq.

Hazırda Daşkəsən Rayon İcra Hakimiyyətinin və rayon aktivinin iştirakı ilə Aşağı Daşkəsən qəsəbəsində əhali ilə görüşdən yenicə çıxmışam. Unun, çörəyin, başqa ərzaq məhsullarının qiyməti ilə bağlı prezidentin verdiyi göstərişin icrasına şəxsən nəzarət edirəm.

Bayaq yerli camaatla birlikdə tort kəsdik. Samovar çayı içdik. Süfrədə tərkibi qarğıdalı, arpa və buğdadan olan çox bərəkətli çörək də var idi. Böyründə də motal pendiri. Təvazökarlıqdan uzaq olsa da deyim ki, mən hər zaman sadə xalqın içində oluram. Rəhbərlik etdiyim rayonun insanları ilə çay də içirəm, yemək də yeyirəm, bayram tədbirlərində, xeyir işlərdə insanlarla birlikdə rəqs də edirəm. Məmurlar cənab prezidentdən nümunə götürməlidir. Dövlətimizin başçısı hər zaman xalqın içində olur. Biz də onun qoyduğu ənənəni davam etdirməliyik.

❑ **Əli RAİS**


24.12.2015, Daşkəsəndə körpünün açılışı




Ə.Abıyev unun qiymətinə nəzarət edir


Daşkəsən rayon rəhbərliyi, 15.01.2016




Daşkəsən, 15.01.2016



# Neft böhranı xarici qüvvələri hərəkətə keçirir



**Regionlarda insanların küçələrə axışması və bahalaşmaya etiraz etməsi kifayət qədər gözlənilməz oldu. Təkcə Siyəzən rayonundakı aksiyaya müxalifətin son illərdə paytaxtda keçirdiyi aksiyada iştirak edən insanların sayından qat-qat artıq insan qatıldı. Adətən, siyasi təhlilçilər və cəmiyyətşünaslar ölkədə mitinq dövrünün geridə qaldığını, insanların küçələrə çıxmağa həvəsli olmadığını əsas gətirərək müxalifətə mitinq taktikasını “sandığa” qoymağı təklif edirdilər. Lakin Siyəzən, Lənkəran və Füzulinin bir kəndinin nümunəsində bəlli oldu ki, hər an ölkədə fors-major situasiyalar yarana və insanlar hətta müxalifətə də ehtiyac görməyərək küçələrə axışa bilərlər.**

# Azərbaycan üçün şok xəbərdarlıq: “Artıq düyməyə basılıb”

## Sabiq milli təhlükəsizlik zabiti rayonlarda başlamış etiraz aksiyalarına sensasion izahat verdi; **hakimiyyətə və cəmiyyətə yönəlik ilginc çağırışlar:** “Azərbaycanı Suriyaya, Yəmənə çevirmək üçün bütün imkanlarını ortalığa qoyublar...“

Digər üç rayonda nisbətən sabitlik yaransa da, yanvarın 15-də Quba rayonundakı məscidlərin birində “bomba həyəcanı” yaşanıb və Daxili Qoşunların nümayəndələri rayona göndərilib. Deputatlar Vahid Əhmədov və Yevda Abramov rayonda hər hansı gərginliyin olmadığını desələr də, bəzi yerlərdə bahalaşmaya etirazla əlaqədar toplantıların keçirildiyi xəbərləri yayıldı. Bu dəfə də meydanda müxalifət yoxdur. Belə situasiyaların isə daha çox təhlükəli perspektivlər vəd etdiyi barədə fikirlər var. Hesab olunur ki, devalvasiya və neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi, kütləvi şəkildə işsizliyin yaranması şəraitində xarici qüvvələr çox asanlıqla xalqın vəziyyətindən istifadə edib hərəkətə keçə, onu təhrik edə, Azərbaycanla bağlı layihələrini gerçəkləşdirmək istəyərlər.

Sabiq milli təhlükəsizlik nazirinin 1-ci müavini, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər vəziyyətlə bağlı olduqca ilginc iddialarla çıxış edib. “Sosial tələblərlə başlayan bu etirazların Rusiyaya (Siyəzən), İrana (Lənkəran) və Ermənistana (Füzuli) sərhəd və ya yaxın rayonlardan başlaması da çox maraqlıdır və təsadüfi sayılmamalıdır”, deyə, S.Əkbər müəllif yazısında qeyd edib. Ölkədəki durumun real təhlilinə əsaslanan materialda “yoxsa Azərbaycanın siyasi hakimiyyəti üçün qum saatı işə salınıb - gerisayım başlayıb?! Çünki ölkədə təxribat düyməsinə artıq basıldığı görüntüsü var”, - deyə, vurğulanır.

**Ekspert həyəcan dolu çağırışlar edərək vəziyyətdən çıxış yollarının aranmasını zəruri sayıb. Sitat:** “Daxildən qırılqan, xarici təsirlərə isə həssas və açıq olan Azərbaycan böyük sınaq qarşısındadır. Zaman bizdən, xüsusən də siyasi iqtidardan və onun rəhbərindən vaxt itirmədən hərəkətə keçməyi, qəti addımlar atmağı tələb edir. Çünki bir millət və dövlət olaraq yaranmış vəziyyətdən mümkün olan ən qısa müddətdə və ən az itki ilə çıxmamız üçün mövcud olan resurslar əsasən hakimiyyətin, xüsusən də prezidentin əlində cəmləşib. Əks təqdirdə, başda siyasi hakimiyyət olmaqla, hamımız bütün Azərbaycanın uduzması təhlükəsi ilə üzbəüz qalmağa və itirməyə hazır olmalıyıq”.

> **“Zaman bizdən, xüsusən də siyasi iqtidardan və onun rəhbərindən vaxt itirmədən hərəkətə keçməyi, qəti addımlar atmağı tələb edir”**

Azərbaycanın müasir tarixində təlatümlər yaşanıb və ölkədəki durumdan xarici qüvvələrin öz mənfəəti üçün yararlanmağa çalışdığı barədə faktlar kifayət qədərdir. Ona görə də ekspertlər şübhə etmirlər ki, ölkədəki mövcud problemlər xarici qüvvələrə də əl-qol açmaq imkanı verir. Azərbaycanda “beşinci kolon”un kifayət qədər dayaqlara malik olması barədə indiyədək çoxsaylı fikirlər səslənib. Narahatlıqla vurğulanıb ki, Azərbaycanı hansısa xarici qüvvənin boyunduruğuna keçirmək qəsdində olanlar bunun üçün fürsət gözləyir və ölkənin iqtisadi böhranla üz-üz qalması fürsətcillərin işinə yarayır. S.Əkbərin əminliklə söylədiyi məlumatlar isə artıq belə qüvvələrin hərəkətə keçdiyindən xəbər verir.

**Azərbaycanın istiqlalçı-deputatı Vahid Əhmədov** “Yeni Müsavat”ın müxbirinə ölkənin müstəqilliyinin qorunmasını vacib saydığını deyərək qeyd etdi ki, Azərbaycan sərbəst siyasət aparır deyə, bu, bir çox dövlətlərin xoşuna gəlmir: “Ona görə də hamı istəyir ki, Azərbaycanda öz mövqeyini gücləndirsin. Sülhəddin Əkbərin dediklərində müəyyən həqiqətlər də ola bilər”. Bununla belə, deputat bildirdi ki, hökumət bir sıra problemlərin həlli istiqamətində addımlar atır və unun, çörəyin qiymətinin aşağı salınmasından sonra digər tədbirlərin həyata keçirilməsi istiqamətində də tədbirlər gözlənilir: “Amma yerli icra hakimiyyəti orqanları camaatla da işləməlidir. İnsanlara demək lazımdır ki, müvəqqəti çətinlikdir, belə problemlər dünyanın əksər ölkələrində var”.

**V.Əhmədov qeyd etdi ki, Azərbaycanda gərgin vəziyyət yaranarsa, bundan xarici qüvvələrin istifadə etməsi də tam mümkündür:** “Hər şey ola bilər. Azərbaycan dünya üçün, xüsusilə də qonşu dövlətlər üçün maraqlı ölkədir. Onlar hər bir situasiyadan öz maraqları üçün istifadə edə bilərlər. Ona görə də biz kifayət qədər ayıq olmalıyıq”.

**AVP sədri, deputat Fəzail Ağamalı** da təsdiqlədi ki, baş verən xoşagəlməz hadisələr un və un məhsullarının qiymətinin kəskin artması ilə bağlı oldu: “Təbii ki, məsələlərə daha radikal yanaşanların emosiyalarından istifadə edənlər də tapıldı. Çalışdılar ki, etirazları kütləviləşdirsinlər, narazı adamların ətrafında daha çox adamlar yığsınlar. Hər halda Siyəzəndə, başqa yerlərdə 300-500 nəfərin iştirakı ilə aksiyalar keçirildi. Hətta "Molotov" kokteylindən istifadə olunması, binaların, polisin daşa basılması cəhdləri də oldu. Bu, artıq dinc aksiya deyildi. Üstəlik, burada daha çox radikalizmin, əvvəlcədən düşünülmüş aksiyanın elementləri var idi. Təbii ki, bunun arxasında həm də xaricdə olan anti-Azərbaycan qüvvələrin maraqları var və onlar sabitliyin pozulması üçün ən müxtəlif cəhdlər edirlər. Bunu konkret olaraq qonşu ölkələrlə əlaqələndirmək haqqında məndə məlumat yoxdur və mən bu məlumata çox ehtiyatla yanaşıram. Çünki Azərbaycanda vəziyyətin gərginləşməsi qonşu ölkələrin maraqları çərçivəsində olmalı deyil. Ölkəmizdə sabitliyin pozulması, qarşıdurmanın genişlənməsi həmin ölkələrə də sıçraya, bu, regional vəziyyəti gərginləşdirə bilər. Məncə, ağlı başında olan ölkə başçısı heç zaman istəməz ki, qonşusunda buna bənzər vəziyyət yaransın. Əgər nəzərə alsaq ki, Azərbaycan qonşu ölkələr üçün heç bir problem yaratmır. Yəni Azərbaycan iqtidarının nə Rusiya, nə də İranla ciddi problemləri yoxdur. Lakin bu ölkələrdən kənarda müəyyən qüvvələr var ki, onlar Azərbaycanla sabitliyi pozmağa çalışırlar".

**F.Ağamalı eyni zamanda qeyd etdi ki, bəzi anti-Azərbaycan qüvvələr mövcuddur:** “Məsələn, İranda müəyyən dairələr var ki, onlar Azərbaycanda vəziyyəti hər zaman qarışdırmağa çalışırlar. Bu yaxınlarda Nardaran hadisəsi baş verəndə vaxtilə Azərbaycan torpaqlarında müəyyən rol oynayan Həqiqətpur təhdid dolu fikirlər səsləndirdi. İranda bu cür insanlar var. Ola bilsin, Rusiyanın özündə də ermənilərin təsiri altında olan müəyyən adamlar var və onlar Azərbaycanda gərginliyin mövcudluğunda maraqlıdırlar. Təbii ki, Ermənistan düşmən ölkədir, bu ölkə, eyni zamanda erməni lobbisi bütün potensialı ilə Azərbaycandakı vəziyyəti gərginləşdirməyə çalışır. Ermənilərin təsiri altında olan qüvvələr də Azərbaycanı Suriyaya, Yəmənə çevirmək üçün bütün imkanlarını ortalığa qoyublar”.

Artıq durum elə təhlükəli həddədir ki, sənət adamları da müstəqilliyimizə yönəlik təhdidlərdən narahatdırlar.

“Azərbaycana kənardan ziyan vermək istəyən çox sayda düşmənlərimiz var. Çox ehtiyatlı olmalıyıq. Azərbaycana əllər uzanıb. Ölkəyə hərc-mərclik salmaq niyyətindədirlər. Azərbaycanı Yəmənə, İraqa döndərmək istəyirlər. Bizə təkcə Rusiya düşmən deyil. İndi də İranın əlini, qolunu açıblar və artıq İran bizə şığıyır”. **Bu sözləri cebhe.info-ya xalq artisti Flora Kərimova deyib. Böyük sənətkar hər kəsi ehtiyatlı olmağa çağırıb:** “Sözümüzdə və addımımızda son dərəcə diqqətli olmalı, sözümüzün ağası olmalıyıq. Tələsik qərar verməklə bu ölkəni bəlaya sala bilərik. İnsanlarımızı qıcıqlandırmaq olmaz. Yanlış bir hərəkət olsa, Azərbaycan məhv olacaq. İlk növbədə bunu düşünmək lazımdır”.

**Adının çəkilməsini istəməyən iqtidar mənsublarından biri isə sabiq MTN zabitinin dediklərini təsdiqləyərək təhlükənin reallığına diqqət çəkdi:** “Əgər ölkədə sabitlik pozularsa, təbii ki, bundan bütün marağı olan qüvvələr istifadə edəcəklər. Yəni tədbirlər görülməsə, qarışıqlıq olan kimi müxtəlif dövlətlərin maraqlarına xidmət edən qüvvələr vəziyyətdən istifadə etməyə cəhd göstərəcəklər. Ona görə də maksimum ehtiyatlı olmalıyıq!”

Yeri gəlmişkən, ötən ilin aprelində Bakıda keçirilən beynəlxalq tədbirlərin birində Azərbaycan Prezident Administrasiyası rəhbərinin müavini, administrasiyanın Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov “SOS” xəbərdarlığı ilə çıxış etmişdi. Dövlət rəsmisi “Azərbaycandan Liviya, Suriyaya çevirmək istəyirlər. Amma bu mümkün olmayacaq”, - demişdi.

**S.Əkbər “düymə basılıb” deyərkən yəqin elə bu ssenarini nəzərdə tutub...**

❑ **Cavid TURAN**

# Prezident struktur islahatlarına başladı

## Satınalmalar üzrə Dövlət Agentliyi ləğv edildi; nazirliklərdən birinin adı dəyişdirildi; Dövlət Bayrağı Meydanı İdarəsi Bulvar İdarəsinə birləşdirildi; yeni rabitə naziri təyin olundu

**Prezident İlham Əliyev “Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin adının dəyişdirilməsi haqqında” sərəncam imzalayıb. Sərəncama əsasən, İqtisadiyyat və Sənaye Nazirliyi İqtisadiyyat Nazirliyi adlandırılıb. Dövlət başçısının digər sərəncamı ilə Şahin Abdulla oğlu Mustafayev Azərbaycan Respublikasının iqtisadiyyat naziri təyin edilib.**

Prezident həmçinin, Ramin Quluzadənin rabitə və yüksək texnologiyalar naziri təyin edilməsi haqqında sərəncam imzalayıb.

Bundan başqa, prezident Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin və Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsinin bəzi məsələləri haqqında fərman imzalayıb. Fərmanla Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsi və Dənizkənarı Bulvar İdarəsi birləşdirilərək, onların əsasında Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsi yaradılıb.

Ölkə başçısı Satınalmalar üzrə Dövlət Agentliyinin ləğv edilməsi haqqında da fərman imzalayıb. Agentliyin vəzifə və funksiyaları, habelə istifadəsində olan dövlət əmlakı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə verilib.



Prezidentin atdığı addımlar gözlənilən struktur islahatlarının başlanğıcı kimi qiymətləndirilir. Böhran vəziyyətində xərclərin azaldılması, lazımsız qurumların ləğvinin zəruriliyi haqda ölkə başçısı bir neçə gün öncəki çıxışında anons vermişdi. Artıq bu istiqamətdə işlərə başlanılıb.

Ekspertlər bildirirlər ki, yaxın müddət ərzində daha bir neçə qurum ləğv ediləcək, həmçinin kadr islahatlarına start veriləcək.

***

Ötən gün Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidmət) sədri İnam Kərimovla görüşüb.

DGK Mətbuat Xidmətindən verilən məlumata görə, tərəflər ASAN Xidmət mərkəzləri vasitəsilə həyata keçirilən gömrük xidmətlərinin artırılması məsələlərini müzakirə ediblər. Görüşdə “elektron bəyanetmə”, “elektron ilkin bəyanetmə”, XİF iştirakçılarına idxal-ixrac əməliyyatları barədə rəsmi arayışların, müvəqqəti idxal olunan yüngül minik avtomobillərinin vaxtının uzadılması ilə bağlı müvafiq xidmətlərin bundan sonra komitə ilə yanaşı, “Asan Xidmət” mərkəzləri vasitəsilə də həyata keçirilməsi barədə məsələlər müzakirə olunub.

Bundan başqa, tərəflər gələcəkdə “Asan Xidmət” mərkəzlərində DGK-nin informasiya köşklərinin quraşdırılması barədə də razılıq əldə ediblər.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər barəsində ətraflı fikir mübadiləsi aparılıb.

**Gömrük orqanlarının funksiyalarının müəyyən hissəsinin Asan Xidmətə verilməsi haqda bir müddətdir müzakirələr aparılır. DGK sədri ilə ASAN Xidmət rəhbərliyinin görüşündə bunun detalları və mexanizmlərinin müəyyən edildiyi qeyd olunur.**

❑ **M.MAHRIZLI**

# Banklara “kredit verməyin” xəbərdarlığının arxasındakı sirr

## Hökumət üzən məzənnə rejiminə keçməklə yanvarın ortasında dolların kursunun manata nisbətdə 2.15 olmasını istəyirmiş, amma etiraz aksiyaları bu qərarı ertələyib; bəzi banklar dollar əmanətçilərinin vəsaitlərini niyə geri qaytarmağa çalışır?

**Mərkəzi Bankın son günlər valyuta bazarında stabilliyi bərpa etmək üçün atdığı addımlara baxmayaraq, vəziyyət ağır olaraq qalır. Mərkəzi Bankın bazara müdaxiləsi ilə dolların məzənnəsində uzun müddət stabil vəziyyət yaratmaq mümkünsüz kimi görünür və bu səbəbdən də yanvarın 15-də Dövlət Neft Fondu *(ARDNF)* tərəfindən 200 milyon ABŞ dolları, Mərkəzi Bank tərəfindən isə 100 milyon ABŞ dolları, ümumilikdə 300 milyon ABŞ dolları məbləğində vəsait hərraca çıxarılıb və 35 banka satılıb. Məlumatlara görə, hərraclar vasitəsilə satılan valyutanın böyük əksəriyyəti Beynəlxalq Bank və Paşa Bank tərəfindən alındığından digər banklara hərracdan cüzi dollar ehtiyatı çatıb. Ona görə də digər bankların valyutaya olan tələbatı hələ də qalmaqdadır. Bu arada qeyd edək ki, Mərkəzi Bank dollarla satışı bir neçə gündür ancaq “AzərTürk bank”a icazə verdiyi üçün bankın qarşısında böyük izdiham yaşanır.**

Mərkəzi Bankın rezervləri sürətlə tükənir. İqtisadçı ekspertlər iddia edir ki, banklara dollar satılması qısa müddətlik dövr üçün tələbatı ödəyə bilər. Hərraclar gün ərzində bir neçə dəfə keçirilməlidir ki, valyuta bazarında olan ajiotaj da müəyyən dərəcədə aradan qalxsın.

Xəbərlərə görə, hökumət dekabrın 21-dəki ikinci ciddi devalvasiyadan sonra manatı üzən məzənnə rejiminə keçirməklə yanvarın ortasında dolların kursunun manata nisbətdə 2.15 olmasını proqnozlaşdırıbmış. Hazırda neftin dünya bazarındakı qiyməti də bu məzənnəni diqtə edir. 21 dekabr qərarından sonra manatın dollara nisbətdə daha da zəifləməsi müşahidə edilirdi ki, bu da yanvarın ilk ongünlüyündə valyutadəyişmə məntəqələrində özünü göstərdi. Hətta avro 2 manat 5 qəpiyə, dollar isə 1.85-dək yüksəldi. Mərkəzi Bankdakı mənbə “Yeni Müsavat”a deyib ki, məhz sosial narazılığın aksiyalar şəklində özünü büruzə verməsi prosesi dayandırıb. Yeni hökumət dolların 2 manatlıq həddinin keçməsini qarşısıalınmaz proseslərə səbəb olacağından ehtiyatlanıb. Məhz bu səbəbdən Mərkəzi Bankla bərabər Dövlət Neft Fondun da dövriyyəyə girib və banklara dollar satışına başlayıb. Amma mənbəmiz deyib ki, dollarla bağlı bütün bu inzibati addımlar yalnız müəyyən dövr üçün effektiv ola bilər. Bu səbəbdən də banklar hərraclardan aldıqları dolların müəyyən hissəsini bazara çıxarır, öz məhdud rezervlərinə isə ümumiyyətlə toxunmur.

Maliyyə çevrələrindəki qaynağımız isə bu xəbərləri təsdiqləyərək deyib ki, dolların kursunun 2 manatlıq həddə çata biləcəyi barədə informasiyalar dollarla olan əmanətlərdə özünü göstərir. Belə ki, bəzi banklar dollar əmanətçilərini vəsaitlərini geri almağa çağırır. Banklar bunu belə izah edirlər ki, guya banklar bağlana, əmanətləri bata bilər. Amma əslində banklar dolların manata nisbətdə yenidən sıçrayış edəcəyi səbəbindən xarici valyuta ilə olan yüksək faizli əmanətlərdən belə deyək, can qurtarmağa çalışırlar. Çünki dolların kursu qalxdıqdan sonra əmanətlərə təyin edilən faizlər *(indi 12-18 faiz arasıdır)* də aşağı düşəcək. Bu isə bankları əmanətlər üçün təyin edilmiş artıq faiz yükündən azad edir, həm də gələcəkdə əmanət qəbulu üçün çox sərfəlidir...

**Daha bir ilginc məlumat banklara kreditlərin verilməməsi ilə bağlı Mərkəzi Bank tərəfindən verilən göstərişdir. Qaynağımız deyib ki, bu qərar hökumətin antiböhran proqramı, daha doğrusu ixtisarlarla bağlıdır. Məlumdur ki, yaxın vaxtlarda hökumət yeni ixtisarlara başlayacaq və bu, dövlət müəssisələrindən tutmuş özəl sektorda çalışanları əhatə edəcək. Mərkəzi Bankın narahatlığının səbəbi bu baxımdan aydındır. Çünki banklar problemli kreditlərin girdabında zatən batır. İndi isə hətta dövlət qulluğunda çalışanların belə sabah işsiz qalmayacağına heç bir zəmanət yoxdur.**

❑ **“Yeni Müsavat”**

# “Axmaq köpəkoğlu”



**Samir SARI**

**93-cü ilin qış vaxtlarıydı. Hətta gücürləyib yadıma da sala bilərəm: fevral ayıydı, hazırda yenidən siyasətə qayıtmaq istəyən Surət Hüseynovun Ağdərədə nəsə bir məğlətə qarışdırdığı günlər idi və camaat kəndimizin mərkəzində, “Bağ” adlanın parkın girəcəyində, dükançı Heydarın univermağının həndəvərində üç-üç, beş-beş dayanıb “ermənilər beyjə sabağatan atıblar”, “deyirlər, Surət Ağdərədə qoşunları dala çəkib”, “Yox e, rus qoymaz bizimkilər qabağa getsin” kimi şərhlər verə-verə söhbət edirdilər. Biz də o dairələrin birindəydik.**

Birdən qulağımıza tamam başqa səpkili bir söhbət dəydi. İki metrliyimizdə həzin-həzin məişət xarakterli mübahisə gedirdi. Bunlar kirvəmiz Mirqəni əminin oğlu Tofiqlə briqadir N. idilər. O vaxt Tofiqin 35, onun həmmübahisinin isə 40-41 yaşı olardı. N. sakit, emosiyasız, bir balaca da incik səslə deyirdi: “Tofiq, dünən axşam mənim oğluma niyə ”oğraş köpəyoğlu" demisən?"

Tofiq deyirdi: “Sənin gədən məhəllədə uşaqları incidirdi, mən də gedəndən onu hədələdim, amma ”oğraş köpəyoğlu" yox, “kopolu, oğraş” dedim".

N. qane olmurdu, deyirdi, gədəm uşaqları incidirdisə, gəlib qulağının dibinə birini tutuzduraydın, “kopolu” deyəydin, ta “oğraş köpəyoğlu” nədir.

Tofiq and-aman edirdi ki, o, məhz “kopolu, oğraş” deyib, “oğraş köpəyoğlu” deməyib.

Bu mübahisədə prinsipial nüans “oğraş” sözüylə bağlıydı, əgər o “kopolu” sözündən sonra səslənmişdisə, briqadir N. üçün problem yox idi, o bu, sözü rahat-hülqum kimi yeyə bilərdi, amma “oğraş” ünvanı “kopolu”dan qabağa keçirdisə, artıq yekə təhqir sayılırdı.

Tofiq etiraf etsəydi ki, onun oğluna gerçəkdən də “oğraş köpəyoğlu” deyib, onda bayaqdan bəri sakit, incik-incik danışan N.-in üzü dönəcəkdi və o, “mənim oğraşlığımı harda görmüsən” deyə ritorik sual qoyacaqdı və şübhəsiz ki, qonşular arasında dava düşəcəkdi.

Tofiq bunu bilirdi, ona görə də israrla təkrarlayırdı ki, qonşusunun oğluna “oğraş köpəyoğlu” deməyib, “kopolu, oğraş” deyib.

Burada incəliyə diqqət edin, Tofiq “köpəyoğlu” sözü ilə “kopolu”nu da fərqləndirirdi. Sanki birinci söz təhqir yükü daşıyır, amma ikinci təxminən “əzizim” kimi bir şeydir. Elə N. da “kopolu” sözünə etiraz etmirdi, onu maraqlandıran o idi ki, “oğraş” ifadəsi həmin o “kopolu”nun harasında yer alıb.

Onların sakit, mədəni mübahisəsinə heç kəs qarışmırdı və tərəflər öz aralarında söhbəti xırdalayırdılar. Amma hər kəs bilirdi ki, Tofiq bir az ağızdan pərtödür, beyni qızanda o, söz sırasını etik baxımdan düz qurmaya bilər və güman ki, N.-in oğluna məhz “oğraş köpəyoğlu” deyib. Çünki “oğraş köpəyoğlu”nun səslənməsi ilə “kopolu, oğraş”ın səslənişi eyni deyil, həm də ürəkdən tikan çıxarmaq məsələsində birinci ifadənin effektivliyi daha böyükdür.

Bu mübahisə axırda onunla nəticələndi ki, Tofiqin əmisioğlu, eyni zamanda N.-in dostu olan M. gəldi çıxdı, bir az mübahisəyə qulaq asdı, sonra üzünü N.-yə tutub dedi ki, əmisioğlu qələt eləyib, p.. yeyib, elə söz deyib, davay, gedək, sizə bir araq alım, söhbət bitsin.

Onlar parkın içindəki yeməkxanaya getdilər, söhbət bitdi. Aradan 20 ildən çox vaxt keçib. Bu saat da gedib Tofiqdən və N.-dən o vaxtkı söhbətin detallarını soruşsaq, məlum olacaq ki, unutmayıblar. Tofiq unudubsa da, N. hələ də ürəyinin dərinliyində “oğraş” və “kopolu” sözlərinin sırası sarıdan nagümandır.

Bu hadisə Cəbrayılın İH başçısı Mahmud Quliyevin qaynatdığı zir-zibilə görə yadıma düşdü. İndi Quliyev də söydüyünü boynuna almır, gah elə deyir, gah belə. Həmin söyüşün yerinə o, şikayətçiyə bir şillə vursaydı, yəqin ki, məsələ indiyə yat-yut olub getmişdi. Amma bizim insanlar belədir, söyüşü, söz yarasını unutmurlar və bağışlamırlar.

Bir də bəzi saytlar başçının şikayətçiyə ünvanladığı söz birləşməsini “Axmaq, köpəkoğlu” kimi yazırlar. Yanlışdır. Burada “axmaq” və “köpəkoğlu” sözləri ayrı-ayrı ifadələr deyil, “köpək” adlandırılan şəxsin həm də axmaq olmasını təsbit edir. Ona görə də ifadənin düzgün yazılışı “axmaq köpəkoğlu” olmalıdır, arada vergül olmamalıdır.

**İH başçısına gəlincə, araşdırmaq lazımdır, bəlkə də onun əcdadları Cəbrayılın Böyük Mərcanlı kəndinə Həmədandan gəliblər.**

YENİ MÜSAVAT
N 11 (6332) 16 yanvar 2016



# Sistemi içəridən dağıdan şəxsiyyət

Zamin HACI
zaminhaci@gmail.com

**Son günlər deputatxana üzvlərinin xalqın etiraz aksiyalarına dəstək verən çıxışlarını zövqlə izləyirik. Bunların önündə hələlik Bərdədən deputat Zahid Oruc gedir. Zahid müəllim çox cəsarətlə monopolist məmurların, yarıtmaz icra başçılarının üstünə gedir. Gəlin ona bir cəmiyyət olaraq dəstək verək.**

Açığı, mən qorxurdum Zahid müəllimi keçmiş partiya yoldaşı və lideri Fəzail müəllim bu cür çıxışlarından sonra idarədə döysün. Çünki tarixi təcrübə var, Fəzail müəllim vaxtilə deputatxanada məmurları tənqid edən Hüseyn Abdullayevə də hücum çəkmişdi. Ancaq sonra Fəzail müəllimin də cəbhə xəttinin bir qırağından Zahid müəllimə dəstək verməsini, Siyəzəndə monopoliya yaradıb cücə ətini və unu xalqa baha satan deputat Tahir Süleymanovu haqlı atəşə tutmasını görəndə xeyli şad oldum. Belə olsun həmişə.

Özü də sizə deyim ki, Zahid müəllim kiçik deputat deyil, bir çoxlarından fərqli olaraq cəsurdur, hətta parlamentdə (artıq yavaş-yavaş bu idarə də öz haqlı adını qaytarmaq üzrədir, bu işdə də Zahid Orucun böyük xidmətləri vardır) təhlükəsizlik və müdafiə məsələləri komitəsinin üzvüdür. Dəfələrlə NATO ilə sülh naminə tərəfdaşlıq proqramının diplomlarını almışdır. Ali savadlıdır, Texniki Universiteti bitirmiş, deputat olana qədər Fizika İnstitutunda çalışaraq elmin yollarında zəhmətlə irəliləmişdir.

Keçən il MTN adlı o şər, böhtan, işgəncə, quldurluq yuvası cənab prezidentin fərmanı ilə dağıdılmağa başlayanda buna ilk dəstəyi də başqaları yox, məhz Zahid Oruc vermişdi. Xatırladıram, həmin vaxt sərəncamla Eldar Mahmudov işdən azad edilmişdi, ancaq heç kim bunun sonunu anlamırdı. Hərə bir söz deyirdi, hətta bəziləri yazırdılar ki, guya prezident Mahmudovu baş nazir qoymaq üçün işdən azad edib. Yalnız Zahid müəllim böyük cəsarətlə Eldar Mahmudovu ifşa etməyə başladı, onu tənqid etdi. Halbuki, qəfildən hər şey ola bilərdi, doğrudan da Mahmudov hansısa vəzifəyə qoyulub adamın canını alardı. Lakin insan qorxmadı! Çünki Zahid müəllim Atlant kimi xalqdan, ana torpaqdan güc alır! Onun kökləri qədim yurdumuzun əsrarəngiz dərinliklərində çulğalanmışdır! (Bayaq yanlış yazdım, əslində Zahid müəllim Antey kimi torpağa bağlıdır. İnsan elə fəaliyyət göstərir ki, bütün qəhrəmanlıqlara uyğun gəlir. Biz indi ona hətta Herakl deyə bilərik. Əgər Azərsun-la davadan sağ çıxsa, şübhəsiz, mifoloji qəhrəman olacaqdır!).

Un kisəsi üzərində əlavə dəyər vergisinin ləğvi, Qubaya suvuran əsgərlərin yeridilməsi, Bakıda Dövlət Bayraq Meydanı idarəsinin ləğvi, Rabitə Nazirliyinə təzə nazir qoyulması, Füzulidə icra hakimiyyətindən Şakir Hacıyevin həbsi də islahatların uğurla davam etməsindən xəbər verir. Yeri gəlmişkən, dünən bu Şakir müəllim haqda cürbəcür xəbərlər yayıldı. Gah yazdılar onun iki kürəkəni də tutulub. Bu kürəkənlər müxtəlif rayonlarda polisdə işləyirmiş. Gah yazdılar kürəkənlər tutulmayıb. Hər halda, icra nümayəndəsinin kürəkənləri ancaq polis sırasından seçməsi maraqlı faktdır, dövlətçiliyimizin xarakterini açır. Eyni zamanda, mən bu Şakir müəllimi yalan olmasın, it ilindən xatırlayıram. Vaxtilə Füzulidə qoyunçuluq birliyinin sədri idi. Sonra Surət Hüseynova qoşuldu, hakimiyyətə gəldi, uzun illər icra hakiminin müavini oldu. İcra hakimi dəyişəndə bunu çıxartdılar, ancaq üç ay keçməmiş təzə vəzifəyə qoydular. Çünki Şakir müəllim olmadan Füzulidə seçki qayırmaq, adam soymaq çətin idi. İndi isə özünü tutdular. Su səhəngi suda sındı.

Ancaq biz təkcə unun ucuzlaşması və yumurta satanların tutulması ilə barışan deyilik. Başqa tədbirlərə də əl atılmalıdır. Yaxşı olardı tort ucuzlaşsın, çörək olmayanda tort yeyə bilək. Zahid Orucun isə fil qulağında yatmış, bəlkə də artıq nirvanaya çatmış Artur Rasizadənin yerinə - baş nazir qoyulmasını tələb edirəm.

**İndi söz əlaqədar təşkilatlarındır.**

**"Dondurulmuş münaqişələrdə nizamlanmaya ehtiyac olduğu aydın görünür". Bu sözləri ABŞ dövlət katibi Con Kerri ölkəsinin 2016-ci il üçün xarici siyasət gündəliyini açıqlayarkən deyib. "Sülhə əngəl həmişə var. Dünyadakı dondurulmuş münaqişələrə baxın. Bu münaqişələrdə nizamlanmaya ehtiyac olduğu aydın görünür. Biz bu məqsədlərimiz istiqamətində nə qədər çox irəliləyiş əldə etsək, o zaman İŞİD-ə qarşı daha effektiv və dayanıqlı mübarizə aparmış olarıq", - deyə o, söyləyib.**



# Okeanın o tayından Qarabağ mesajı - ilginc gəlişmə

## Politoloq: "Bakının Vaşinqtona göndərdiyi və göndərəcəyi müsbət siqnallar ABŞ-ın ərazi bütövlüyümüzə marağının artmasına səbəb ola bilər..."

**Amerikalı diplomatın dedikləri Qarabağ münaqişəsinin həllinə də ümidlər yaradıb. Bu arada ATƏT-də sədrliyin Belqraddan Berlinə keçməsi Almaniyanın da prosesdə aparıcı rol oynayacağı haqda ehtimalları çoxaldıb.** "Almaniya Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) sədri kimi Dağlıq Qarabağ və Dnestryanı münaqişələrin həllində aktiv rol oynayacaq"-deyə, Almaniya xarici işlər naziri Frank-Valter Ştaynmayer bəyan edib.

**Paralel surətdə Rusiyanın 7 rayonun azad olunması ilə əlaqədar fəallığını artırdığı barədə məlumatlar Qərbi də hərəkətə gətirib.** Lakin Qərb dairələri Moskvanın niyyətinin arxasında başqa mətləblərin olduğunu güman edir. "Rusiya İrana qədər tranzit şəbəkəsini genişləndirmək istəyir, lakin bu, ağır olacaq. Xüsusilə Qafqaz bölgəsi Moskvanın qarşısında maneədir". Publika.az xəbər verir ki, bu barədə ABŞ kəşfiyyatının "kölgəsi" hesab olunan "Stratfor" mərkəzi yazıb.

**Məqalədə qeyd olunur ki, Tehran və Moskva Qafqaz bölgəsini maneə olaraq aradan qaldırmaq üçün səylərini birləşdirəcəklər:** "Onlar başqa böyük dövlətin bu bölgədə olmağını istəmirlər. Hələlik, Rusiya Cənubi Qafqaz vasitəsilə İrana iki yol açmağı bacarıb. Birincisi, Xəzər dənizinin sahil boyunca Azərbaycandan, ikincisi isə Gürcüstanın ərazisinə daxil olan dağlardan keçir. Birinci yol Azərbaycan və İran arasındakı tarixi gərginliyə görə bağlanıb. İkinci yol isə qış vaxtı keçilməz olur və avtomobillər gedə bilmir. Buna görə də Rusiya, İran və Ermənistan quru ticarət yolunun genişləndirilməsinə çalışırlar".

**Politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a dedi ki, Con Kerrinin "dondurulmuş münaqişələrdə nizamlanmaya ehtiyac olduğu aydın görünür" fikri önəmlidir: "Kerri o fikrində də haqlıdır ki, dondurulmuş münaqişələr terrorçu qruplaşmaların fəaliyyəti üçün münbit şərait yaradır. Buna baxmayaraq, Vaşinqtonun qollarını çırmalayaraq dondurulmuş münaqişələrin həllinə girişəcəyini zənn etmirəm. Birincisi, Kerrinin də üzvü olduğu Barak Obama administrasiyasının ömrünə az qalıb. Obamanın 8 illik prezidentlik müddəti başa çatır. Əgər Obama və Kerri dondurulmuş münaqişələrin həllini bu qədər aktual sayırlarsa, gərək bu işə daha öncə başlayaydılar. İkincisi, ABŞ dünyanın əsas supergücü olsa da, əli hər yerə çatmır. Məsələn, bizim bölgəni götürək. ABŞ Rusiyanın 2008-ci ildə Gürcüstanı parçalamasına, 2014-cü ildə Krımın ilhaqına və Donbass separatçılarına dəstəyinə mane ola bilmədi. Bunlar da artıq dondurulmuş münaqişələrə çevrilib. Çünki nə Gürcüstan, nə də Ukrayna Abxaziya, Cənubi Osetiya, Krım və Donbasın itirilməsiylə barışmayıblar. Elə bunlardan da uzun tarixə malik olan Dağlıq Qarabağ münaqişəsi də dondurulmuş münaqişə sayılır".

**E.Şahinoğlu qeyd etdi ki, Dağlıq Qarabağın separatçı və terrorçu məskəni olduğunu xüsusi sübut etməyə ehtiyac yoxdur:** "Torpaqlarımızın işğalında ASALA və ona dəstək verən terrorçu qruplaşmaların xüsusi rolu olub. Buna baxmayaraq, Barak Obama administrasiyası Azərbaycanla Ermənistan arasında bərabərlik işarəsi qoyur. Ancaq hər halda hətta Qarabağ məsələsində də Vaşinqtonun mövqeyi Moskvanın mövqeyindən müsbətdir. Məsələn, ABŞ-ın Minsk Qrupundakı həmsədri Ceyms Uorlik dəfələrlə deyib ki, Dağlıq Qarabağ ətrafındakı torpaqlar azad olunmalıdır. Onun rusiyalı həmkarından isə bircə dəfə də oxşar fikir eşitməmişik. Çətin dönəmə daxil oluruq. Azərbaycanda iqtisadi və sosial problemlər artır. Belə vəziyyətdə biz ABŞ-la əməkdaşlığı daha da genişləndirməliyik".

**Politoloqun sözlərinə görə, ABŞ-dan Azərbaycana səfərlərin artması da yaxşı haldır:** "Bir neçə gün əvvəl ABŞ-ın Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Çarlz Kupçan Azərbaycana gələrək prezident İlham Əliyev və müdafiə naziri Zakir Həsənovla görüşdü. Hər iki görüşdə bölgədəki hərbi-siyasi vəziyyət, Azərbaycan hərbçilərinin Əfqanıstandakı sülhməramlı missiyanın tərkibində fəaliyyəti müzakirə olunub. Bu görüş Azərbaycanla ABŞ arasında hərbi və təhlükəsizlik sahəsində əməkdaşlıqda problemin olmadığını göstərir. Bu səfərlərin birbaşa Dağlıq Qarabağ münaqişəsinin həllinə aidiyyəti olmasa da, Bakının Vaşinqtona göndərdiyi və göndərəcəyi müsbət siqnallar ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünə marağının artmasına səbəb ola bilər. Vaşinqton Ukraynanın ərazi bütövlüyünün təmini məqsədilə Kiyevlə sıx əməkdaşlıq edir, ona hər cür dəstək verir, Rusiyaya qarşı sanksiyalar tətbiq edir. Biz elə etməliyik Vaşinqton Azərbaycanın ərazi bütövlüyünə də eyni prizmadan yanaşsın. Bütün hallarda yaxın illərdə Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllini gözləmək əbəsdir. Bunu İlham Əliyevin Nazirlər Kabinetinin toplantısında Dağlıq Qarabağ münaqişəsinin həlli prosesindən danışarkən dediyi "Ermənistan sülh istəmir" fikri də sübut edir. Bu açıqlama 2016-cı ildə də cəbhə bölgəsində gərginliyin davam edəcəyinin xəbərçisidir. Biz 2016-cı ildə həm atəşkəsin intensiv pozulmasının və itkilərin, həm də danışıqların davamının şahidi olacağıq. Atəşkəs daima ona görə pozulacaq ki, Ermənistan Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmağa hazır deyil və Azərbaycan ordusu qarşı tərəfi təzyiq altında saxlayacaq. Nəticəsi olmayan danışıqlar isə ona görə davam edəcək ki, bu yolla heç olmasa, müharibənin qarşısı alınsın".

❑ **Cavid TURAN**



# Həmyerlimizə ABŞ-da yüksək vəzifə verildi

**Amerika vətəndaşı olan azərbaycanlıya ABŞ-da vəzifə verilib. AzNews.az Türkiyə KİV-lərinə istinadən xəbər verir ki, ABŞ-ın Qarabağ Fondunun təsisçisi Adil Bağırov Ohayo ştatının Deyton şəhər Təhsil Şurasının sədri seçilib. O, bu vəifəyə seçilən ilk azərbaycanlıdır. Həmyerlimiz Şuraya 2013-cü ildə seçilən 7 üzvdən biri olub.**

Məlumat üçün bildirək ki, Deyton Təhsil Şurasının 500 milyon dollarlıq illik büdcəsi var və 14 min şagirdin oxuduğu dövlət məktəblərinə nəzarət edir.

Azərbaycanın tanınmış ailələrindən birində böyüyən və enerji sahəsində işləyən Adil Bağırov son illər siyasətə maraq salıb. İki uşaq atası olan Adil Bağırov Türk-Amerika əlaqələrinin inkişafı üçün çalışan Amerika Türk Şurasının keçmiş rəhbəri Sevin Elakdağ ilə evlidir.

YENİ MÜSAVAT
N 11 (6332) 16 yanvar 2016



# "İran və Səudiyyə qarşı-qarşıya savaşmayacaqlar, amma..."

## **Yaxın Şərq mütəxəssisi Ziya Abbas**: "İraq və Suriyada bu il savaşlar daha da şiddətlənəcək, hətta "İslam koalisiyasının" Suriyaya ordu yeritməsi mümkündür"

**İran və Səudiyyə Ərəbistanı arasında gərginlik bölgənin siyasi-diplomatik gündəmini zəbt edib. Ərəb Dövlətləri Liqasının İrana təpki göstərməsi böhranın daha da dərinləşəcəyini göstərir. Bölgənin iki qüdrətli dövləti olan İran və S.Ərəbistanı arasındakı bu gərginliyi ekspertlər region üçün ciddi təhdid hesab edirlər.**

Krallıq İrana qarşı az qala bütün ərəb dünyasını, o cümlədən Türkiyə və Pakistan kimi güclü dövlətləri də səfərbər etməyə çalışır. Bu səfərbərliyin, gərginləşən münasibətlərin son hədəfi nədir? İki ölkə arasında savaş ehtimalı varmı?

**Aksaray Universitetinin əməkdaşı, Yaxın Şərq üzrə mütəxəssis Ziya Abbas** deyir ki, iki dövlət arasında uzun illərdən yığılıb qalan düşmənçilik indi özünü kəskin şəkildə büruzə verir: "Doğrusu, ərəb dünyasında uzun illərdir daxili problemləri "Məcusi" "Pers İmperatorluğu xəyalı" kimi şüarları İran və şiələr üzərindən xaricə yaymağa çalışır. Bu qavrayış ərəb dünyasında cəmiyyətlərdə böyük dəstək qazanmaqdadır. Daha doğrusu Səudiyyə Ərəbistanı mərkəzli ərəb rejimləri bu qavrayış əməliyyatlarında böyük ölçüdə uğur qazanıblar.

İslamiyyətin ilk əsrindən bəri davam edən maraq mübarizələrinin məzhəb qarşıdurmaları şəklində görünməsi xüsusən də son illərdə geniş yayılıb".

**Ancaq Z.Abbas bu gərginliyin savaşa çevriləcəyinə inanmır:** "Təbii ki, Səudiyyə Ərəbistanı təkbaşına İranla savaşa girməyəcəyi kimi, İran da Səudiyyə ilə birbaşa müharibəyə başlamaz. Yəni özətləsək, iki ölkə arasında vəkalət savaşı, yəni üçüncü ölkədə savaşmaları davam edəcək".

**Bu mənada ekspert hər iki tərəfin dəstəklədiyi qüvvələrin olduğu Suriyada və İraqda savaşların daha da şiddətlənəcəyini düşünür. Hətta Suriyaya hərbi müdaxilə də gözləniləndir:** "Böyük ehtimalla Səudiyyə Ərəbistanı lazımı dəstəyi ala bilsə "İslam İttifaqı" çərçivəsində İranın bölgədəki nüfuzunu zəiflətmək üçün Suriyaya "sülhyaratma qüvvələri" adı altında ordu yeridəcək".

Eyni zamanda Yəmən savaşı da dərinləşəcək. Z.Abbasın fikrincə, bölgənin mürəkkəb coğrafi relyefi, üstəlik yəmənli husilərin sərt müqaviməti, həttа Ərəbistanın içərilərinə doğru hərəkət etmələri Səudiyyə hakimiyyətini çətin duruma salıb. Bu səbəbdən də Ər-Riyad Yəməndə savaşı davam etdirmək üçün müsəlman ölkələrindən, o cümlədən Latın Amerikası kimi regionlardan militanlar cəlb etməklə Yəməndə savaşı davam etdirməyə çalışır.



**Ziya Abbas deyir ki, bir sıra ərəb dövlətləri, o cümlədən körfəz dövlətləri İran və şiəlik fobiyası səbəbindən indiki vəziyyətdə İrana qarşı cəbhədə yer alır. Bu səbəbdən də ekspert yaxın zamanlarda Suriyada və İraqda savaşın bitəcəyini güman etmir:** "Həm Suriyada, həm də İraqda savaşlar davam edəcək. İraqda Bağdad, Samirra kimi bölgələrə nəzarət uğurunda mübarizə güclənəcək. Şiələrin bu şəhərlərdən imtinası, sünniləri vaz keçməsi mümkün deyil. Bir tərəfdən də kürdlər yaranmış vəziyyətdən istifadə edərək İraqın şimalında kürd bölgələrində xəndək qazmaqla faktiki olaraq yaratmaq istədikləri kürd bölgəsinin sərhədlərini cızdıqlarını nümayiş etdirirlər.

Hazırda İŞİD-in əlində olan Mosul əhalisinin 40 faizini sünni ərəblər təşkil edir. Yerdə qalan hissəsini isə fərqli etnik və dini qruplar təşkil edir. Bura şiə türkmənlər, yezidilər, süryani keldenilər və sair kimi qruplar var. Bu qruplar öz torpaqlarına geri dönmək istəsələr də sünni ərəblər buna imkan vermir. Enerji məsələsi isə bölgənin üzərində ağırlığını saxlayır. Məlum olduğu kimi hazırda Kərkük nefti kürdlərin nəzarətindədir. Ancaq eyni zamanda yerli ərəblər və türkmənlər bu durumu qəbul etmirlər. İŞİD problemi həll olunduqdan sonra şiələr bu bölgəyə yenidən geri dönəcəklər".

❑ **KƏNAN**

# Tiflisin Bakıya qarşı qaz şantajı barədə ilginc şərh

## Vəziyyətdən üçüncü tərəf qazanacaq; **Əli Məsimli:** "Qazprom" - Gürcüstan sövdələşmələrinin uzunmüddətli perspektivini görmürəm"



**"Saakaşvili hakimiyyətdən gedəndən sonra, xüsusən son illər Gürcüstanın müəyyən dairələrinin Rusiyaya meyli güclənib. Gürcüstanın xarici ticarətində Rusiya üçüncü yerə gəlib çıxıb. Müəyyən dairələr üçün yaradılan eksport imkanlarının genişlənməsindən yüz milyon dollarla ölçülən böyük pullar qazanırlar və Gürcüstanda avrointeqrasiyaya meylli olan əksəriyyətdən fərqli olaraq, həmin hissə Rusiyaya meyli gücləndirməklə məşğuldur".**

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Əli Məsimli** bu fikirləri "Yeni Müsavat"a Gürcüstan-Azərbaycan qaz danışıqları və iki ölkə arasında yaranmış mübahisəli durumu şərh edərkən bildirdi. Ə.Məsimli hesab edir ki, Gürcüstan Azərbaycanın təsir dairəsində deyil: "Gürcüstanın bir hissəsi təmənnasız, digər hissəsi güzəştli, o biri hissəsi isə qarşılıqlı faydalılığa əsaslanan normal biznes münasibətləri çərçivəsinə real dəstək dairəsindədir. Görünür, Gürcüstanda hansısa dairələr "iqtisadi məqsədəuyğunluq və qarşılıqlı faydalılığa əsaslanan davamlı perspektivlər", yoxsa "siyasi konyuktura və dumanlı perspektivlər" məsələsində ikinci variantı seçib. Və bununla da qaz şantajına, qışda donmağa, qaz müqabilində ölkələrinə qarşı məlum təzyiqlərin başlanması variantına yol açmış olurlar. Bu işi hansısa siyasi dairənin şəxsi maraqları çərçivəsində - məsələn, İvanaşvili "Qazprom"un səhmdarıdır - bəlkə də bir müddət yeritmək olar, amma Gürcüstanın dövlət maraqları baxımından öz-özünə yürüyən amilə çevrilə bilməz. Ona görə ki, dövlət maraqları baxımından mənafe birliyi olmayan yerdə məqsəd birliyi, məqsəd birliyi olmayan yerdə isə davamlı birgə hərəkət birliyi olmur. Bu, hələlik daha çox Azərbaycan qazının qiymətini indikindən də aşağı *(Azərbaycan qazı 190 dollara, "Qazprom"- 220 dollara satır-E.P.)* salınmasına yönəlmiş "qaz müstəqilliyi oyununa" bənzəyir ki, belə manevrlər etməklə Azərbaycandan alınan qazı daha ucuz ala bilsinlər".

**Bununla yanaşı, Ə.Məsimli bildirdi ki, Saakaşvili hakimiyyətdən gedəndən sonra Gürcüstanda və Gürcüstan xaricində hansısa siyası dairə Bakı ilə Tiflis arasında gərginlik yaranmasında maraqlı görünür:** "Gürcüstanın indiki siyasi hakimiyyətinin müəyyən dairələri bəzi hallarda xırda maraqlar naminə riskli, müttəfiqlik münasibətlərinə xələl gətirən addımlar atmaqla oradan özlərinə əlavə fayda götürmək istəyənlərin əməli də ola bilər. Azərbaycana görə Gürcüstanın nə indi, nə də gələcəkdə qaz problemi yoxdur. Bunu Gürcüstanla Azərbaycan arasında bağlanan uzunmüddətli qaz sazişinə əsasən deyirik. Bununla belə, hər bir ölkə zəruri infrastruktur və sair problemləri həll etmək qabiliyyətinə malik olduqda, məlum "qaz tələsinə" düşmədən və öz müstəqilliyinə xələl gətirmədən, qaz təchizatını şaxələndirə bilər. Amma həmin şərtlər olmadan atılan belə addımlar ucbatından üçüncü tərəf bundan faydalanaraq Azərbaycan - Gürcüstan münasibətlərini korlamaq şansı əldə edəcək".

**"ABŞ-ın Azərbaycana sanksiya hədələri var. Ola bilərmi ki, Tiflis həm də ABŞ-ın sifarişinə uyğun davranır"-sualının cavabında deputat qeyd etdi ki, Qərb kifayət qədər geniş və mürəkkəb anlayışdır:** "Orada müxtəlif maraqların daşıyıcısı olan siyasi qüvvələrin olması və məqam düşəndə suyu bulandımağa cəhd etməsi hamıya məlumdur. Amma ABŞ-ın rəsmi dövlət siyasətində belə bir dəyişikliyin olacağı inandırıcı görünmür. Çünki Mərkəzi Asiyanın Qərbə inteqrasiyası kimi dünya düzənin köklü dəyişikliyinə aparacaq layihə, eləcə də Avropanın bir nömrəli problem olan enerji təhlükəsizliyi probleminin optimal həlli məhz Azərbaycanın əvəzolunmaz iştirakı ilə və Gürcüstan ərazisi vasitəsilə həyata keçirilir. Belə həlledici bir prosesin sürətləndirilməsi zərurəti fonunda, ABŞ-ın və Avropa Birliyinin TANAP və TAP layihələrinə birmənalı şəkildə dəstək verdiyi halda, Azərbaycan ziyan vurmaqla özlərinə on qat artıq ziyan vurmaları kimə gərəkdir? Ona görə də yox, bu, ABŞ-ın sifarişi ola bilməz. Məsələnin təbii tərəfi qaz bazarları uğrunda mübarizənin daha da kəskinləşməsidir. Bunun, bir vaxtlar Bakı-Tiflis - Ceyhan boru kəməri həyat keçirilən zaman Azərbaycana qarşı olan təzyiqlərə bənzər, indi də TANAP və TAP layihələrinə qarşı təzyiqlərin tərkib hissəsi olması ehtimalı daha çoxdur. Bəzilərinin şəxsi maraqları bu işə qarışanda, məsələ daha da mürəkkəbləşir. Məsələn, necə ki, Saakaşvili hələ gedər-getməz baş nazir kimi İvanaşvili Bakı - Tiflis - Qars dəmir yolu kimi möhtəşəm layihəni təftiş təşəbbüsündə bulunmağa başlamışdı. Yerə enəndən sonra görünür dərk etməyə başladı ki, Azərbaycanın real dəstəyi olmadan Gürcüstan hansı problemlərlə qarşılaşa bilər".

**Ə.Məsimli qeyd etdi ki, hazırda Azərbaycan müqavilələr çərçivəsində Gürcüstanın qaza olan tələbatının 80 faizini ödəyir:** "Ancaq tam da ödəyə bilər. Əgər indi gedən söhbətlərdə "Qazprom"dan daha böyük həcmdə qaz alınması təşəbbüsü göstərilirsə, bu, artıq Gürcüstanın qalan 20 faizlik tələbatını ödəmək yox, Qərbin, Ukraynanın və sairin Rusiya qazından asılılığını azaltmaq və bir sıra hallarda isə imtina etməyə başladıqları bir zamanda Gürcüstanın "Qazprom"dan aldığı qazın az bir hissəsini öz tələbatına sərf etmək, çoxunu isə xaricə satmaq layihəsi də ola bilər. Belə bir plan reallaşdırılmağa başlansa, təbii ki, Qərbin xoşuna gəlməyəcək. Qarşılıqlı faydalılıq və dövlət maraqları baxımından kommersiya maraqları üzərində qurulmayan, yalnız siyasi konyuktura söykənmiş layihələrin gələcəyi olmadığından, "Qazprom" - Gürcüstan sövdələşmələrinin uzunmüddətli perspektivini görmürəm. Ona görə də Azərbaycan və Gürcüstan diplomatiyası hazırkı reallıqlar şəraitində daha diqqətli olmalı, Gürcüstan-Azərbaycan münasibətlərinə xələl gətirmək cəhdlərinin neytrallaşdırılması sahəsində birgə səylərini gücləndirməlidir".

❑ **Cavìd TURAN**

YENİ MÜSAVAT
N 11 (6332) 16 yanvar 2016

**Son günlər mətbuatın əsas müzakirə mövzularından biri də Cəbrayılın icra başçısı Mahmud Quliyevlə bağlı yayılan məlum videodur. İcra başçısının vətəndaşı təhqir etdiyi iddia olunan videoda işlədilən “köpəkoğlu” sözü ətrafında qalmaqal böyüməkdədir.**

# Cəbrayılın icra başçısı ilə bağlı qalmaqal böyüyür

## Mahmud Quliyev istefaya çağırıldı; **icra başçısı:** “Əgər günahım olsaydı, Prezident Administrasiyasında dərimi boğazımdan çıxarardılar...”

2000-ci ildən Cəbrayılın icra başçısı olan M.Quliyev mətbuata açıqlamasında videodakı şəxsin özü olduğunu açıqlayıb. O, videonun yayılmasının təxribat olduğunu, bu işdə tanınmış yazar Günel Mövludunun əlinin olduğunu iddia edib: “Bütün bunları Günel Mövlud təşkil etdirib. Çünki onun atası işdən çıxıb, 2 qardaşı da narkotik maddə istifadə etdiyinə görə həbs olunub. Mən heç onları tanımıram. Ancaq o vaxt Günel Mövludun atası yanıma gəlmişdi, pul istədi, mən də ona pul verdim. Videonu da Günel Mövlud yaydırıb. Heç nədən şər-böhtan yaradırlar”.

**G.Mövlud da öz növbəsində mətbuatda icra başçısına geniş köşə yazısı həsr edib. Yazıdan bəzi hissələri təqdim edirik:** “Mahmud Quliyev cəbrayıllıların yaşadığı yerdə qorxu mühiti yaradıb. Şəxsən mənim valideynlərim dəfələrlə yalvarıblar ki, ondan heç nə yazmayım. Anam yazıq qorxa-qorxa mənə deyirdi ki, Mahmud Quliyev bizim ailəni sürgün edər. Təsəvvür edirsiniz? M.Quliyevin qoluzorlu qohumlarından, özünün gücündən, nüfuzundan, imkanlarından qorxurlar. Yazıq cəbrayıllılar, imkansızlıq, köçkünlük, qəribçiliklə yanaşı, heç kimdən çəkinməyən, özünü orda hakimi-mütləq hesab edən, bütün qanunlara tüpürən bir icra başçısının qorxusuna, təhqirinə, söyüşlərinə də dözməlidirlər. Videoda hamı bu adamın mədəni səviyyəsini, danışıq tərzini, insanlarla davranışını gördü”.

**Milli Məclisin 120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsindən olan deputatı Astan Şahverdiyev də icra başçısını tənqid edib:** “Bu barədə danışmaq istəmirəm. O, danışıb və indi ondan münasibət öyrənilməlidir. Əlbəttə, insanları təhqir etmək olmaz. Şəxsiyyətindən, kimliyindən asılı olmayaraq, heç kimi təhqir etmək olmaz. İnsanlarla davranışda heç olmazsa, cənab prezidentə baxıb nümunə götürülməlidir”.

**İqtidaryönlü-deputat Zahid Oruc da** icra başçısını işlətdiyi ifadələrə görə sərt tənqid edib: “Baş verən aksiyalarda istər hansısa partiyanın nümayəndələri, istərsə də bir zamanlar icra başçısı tərəfindən vəzifədən çıxarılan şəxslər yaranan şəraitdən, sosial durumdan faydalanıb revanş götürmək istəyirsə, sənə qarşı qisasçılıq belə varsa, yenə də, ünsiyyət ”köpəkoğlu" şəklində ola bilməz. Orta əsrin feodal yanaşması deyil ki, sən qarşındakı şəxsi təhqir edirsən. Baş verənlərdən sonra insanlarımızın səsi məmurlara çatdı, hökumət bu məsələni dəyərləndirdi, qarşıdakı dönəmdə də bundan nəticə çıxaracaq. Baş verən aksiyalarda siyasi məsələlər yox, sosial-iqtisadi məsələlər qaldırılmışdı. Ona görə də, məmurlar oraya yığışan insanları iclas zallarına yığıb onlarla görüşməli, danışmalı idilər. Qohumumdur deyib, təhqir edib, həlö bununla da ölkə ictimaiyyətinə demək ki, “burada hansı qəbahət var?”... Bilirsiniz, adam fərqində deyil ki, öz qohumuna “köpəkoğlu” deyirsə, bəs özü nə olur?

**Əslən Cəbrayıldan olan keçmiş döyüşçü Vaqif Əlisoy** “Yeni Müsavat”a açıqlamasında M.Quliyevin fikirləri ilə bağlı bunları dedi: “Tam səmimi deyim ki, Cəbrayılda ən yaxın


Mahmud Quliyev

adama belə "köpəkoğlu" sözünü demək adi hal alıb. Amma Mahmud müəllimin dilindən bu sözlər çıxıbsa, bunu qətiyyətlə pisləyirəm. O, vətəndaşı qəbul edirsə, vətəndaşa qarşı bu cür ifadələr işlədirsə, bunu qəbul edə bilmirəm. Cəbrayıl camaatı, xüsusilə onun yaşadığı kəndin sakinləri bunu birmənalı qəbul etmirlər. Düşünürəm ki, etdiyi hərəkətə görə cəbrayıllılardan üzr istəyəcək. İstənilən halda, bu, xoşagələn hal deyil. Cəbrayıllı olaraq, icra başçımızın adının belə olayda hallanmasından dərin təəssüf hissi keçirirəm".

**Cəbrayıllı fəal Azər Telmanoğlu** icra başçısını istefa verməyə çağırdı: “Cəbrayıl qəsəbələrinin sosial durumun bərbad olması onun necə fəaliyyətsiz başçı olduğuna sübutdur. Yol infrastrukturu dağılmış, işsizliyin tüğyan etdiyi qəsəbə Mahmud Quliyevin "şah əsəridir". Son hadisə onun necə insan olduğun göstərdi. Bu hərəkəti edən başçı vəzifəsindən azad edilməlidir".

Yanvarın 15-də günorta saatlarında M.Quliyevin Prezident Aparatına çağırıldığı və vəzifəsindən azad olunacağı barədə xəbərlər yayıldı. Doğrudur, təsdiqini tapmasa da, məsələnin bu tərzdə günü-gündən böyüməsi, Cəbrayılın icra başçısının postunu itirəcəyini gündəmə gətirir.

**Məsələyə obyektiv aydınlıq gətirmək üçün barəsində yayılan xəbərlər, ittihamlar, iddialarla bağlı icra başçısının özü ilə əlaqə saxlamağa nail olduq. Əvvəlcə danışmaq istəməsə də, sonradan razılaşdı. M.Quliyev Prezident Aparatına çağırılması ilə bağlı xəbər yayanlara sərt cavab verdi:** “Bu xəbəri yayanlar qələt edirlər. Məni çağırsalar çağıracaqlar, çıxarsalar çıxaracaqlar, töhmət versələr də verəcəklər. Onların nə işlərinə qalıb? Amma hələ ki çağırmayıblar. Yalan məlumatdır. Qızara-qızara ağıllarına gələni yazırlar. Bilirlər ki, heç bir günahım yoxdur. Əgər günahım olsaydı, dərimi boğazımdan çıxarardılar. Amma onu dəqiq bilirlər ki, səhvə yol verən insan deyiləm, daim prezidenti dəstəkləmişəm, ölkə başçısı üçün canımla-qanımla çalışan şəxsəm. Belə söhbətlərə əhəmiyyət vermək lazım deyil. Öz yaxın adamlarımla söhbətim olub. Hamısını yığıb başa salmışam. Səhər saat 9-dan baş verən hadisə ilə məşğul olmuşam. İçdilər, sərxoş oldular. ”Mən filan partiyanın üzvüyəm" deyən şəxs daxil olmaqla, hər kəs öz cəzasını aldı. Amma qoymadım ki, kimsə tutulsun".

**İcra başçısı Günel Mövlud** məsələsinə yenidən toxundu: “Onunla bağlı artıq fikir bildirmək istəmirəm. Onun kimliyi bəllidir. Bir ailəni bədbəxt edib. Özü də bədbəxt olub. Mətbuat çox yalan xəbərlər dərc edir. Amma vicdanlı, qərəzsiz jurnalistlər də az deyil. Əvvəlcə intervü vermək istəmirdim. Amma jurnalist olaraq, xətrinə dəymək istəmədim. Jurnalistlərə daim dəyər verirəm. Barəmdə bu cür yazı yazanların çoxunun məqsədləri var”.

**M.Quliyev deputat A.Şahverdiyevin barəsində dediklərinə sərt cavab verdi:** “Onun açıqlaması mənim üçün maraqlı deyil. Heç oxumamışam da. Maraqlanmaq niyyətim də yoxdur. Əhəmiyyət belə vermək istəmirəm ki, o nə deyib. Mənasız sözlərdir”.

❑ **Cavanşir ABBASLI**

# "Alkaş", "narkoman" iddiaları daha da qıcıq yaradır"

## Siyasilər ənənəvi taktikanın yaxşı nəticə verməyəcəyini bəyan etdilər

**Rayonlarda etiraz aksiyalarında iştirak edənlərin sadə rayon əhalisi deyil, radikal ekstremist qruplar, təşkilatçıların isə müxalifət partiyaları olduğu təbliğatı aparılır. Hətta bəzi məmurlar ac olması səbəbindən etiraza qalxanlara “alkaş”, “narkoman” damğaları da vururlar. Qiymət artımına və işsizliyə qarşı etiraz edən insanların nədən bu cür adlandırılması, nədən belə edildiyi maraq doğurur. Bu yolla problemi həll etmək mümkündürmü? Hakimiyyət nədən ənənəvi taktikanı seçdi?**

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev** bildirdi ki, hakimiyyət hər işi olduğu kimi saxlamaq niyyəti sərgiləyir. Cəmiyyəti baş verən proseslərdən kənarda saxlamaq üçün aqressiv mövqe göstərilir. Edilənləri preventiv tədbir saymaq olar: “Azərbaycanda yaranmış vəziyyət və onun nəticəsində ortaya çıxan etiraz dalğası dərin obyektiv köklərə malikdir. Ona görə də ilk növbədə problemi doğurmuş səbəbləri aradan qaldırmaq istiqamətində fəaliyyət məqsədəuyğundur. Prosesləri küçədən yığışdırmaq üçün, cəmiyyət konkret addımlar görməlidir. Əks halda belə fəsadlar təkrarlana bilər. Mən ölkənin yaşadığı problemlərin intellekt gücünə həllinin tərəfdarıyam. Bu səbəbdən hakimiyyət baxışlarda fərqliliyin həllini danışıq masasına transferetmə təşəbbüsü göstərməli, ciddi qanun pozuntusu olmayan şəxsləri dərhal azad etməli, yeni etiraz dalğasına əsas yaratmamalıdır. O ki qaldı etirazçılara qarşı ittihamlara, hesab edirəm iqtidar təbliğatçıları yanlışa yol verirlər. Küçələrə çıxan insanların mütləq əksəriyyəti ehtiyac ucbatından etiraz edənlərdir. Belə insanların ekstremist adlandırılması haqsızlıqdır. Bu, daha artıq qıcıq yaradır. Unutmamışıq, ötən əsrdə xalq hərəkatı zamanı da müstəqillik tələbləri ilə mübarizə aparanları Moskva ”ekstremist", "narkoman" adlandırırdı. Nəticəsi göz önündədir. Həmin epitetlərlə adlandırılan millətimiz SSRİ-ni çökdürdü, müstəqillik qazandı".


Əli Əliyev


Tural Abbaslı

**“Ağ Blok”un həmtəsisçisi Tural Abbaslı** bildirdi ki, işsiz, ac insanların sosial tələblərlə keçirdiyi aksiyaları siyasiləşdirmək, aksiyaların səbəbini gizlətmək məqsədi güdülür. Ona görə də aksiyaları radikal ekstremist, dini qrupların keçirdiyi, müxalif partiyaların təşkil etdiyi kimi təbliğatı yayırlar. Əslində isə o aksiyaların təşkilində heç bir müxalifət partiyasının rolu yoxdur. Ola bilsin ki, etiraza qalxan əhalinin sıralarında partiya üzvü olan adamlar olub. Ancaq bu, təşkilatçının partiyalar olması demək deyil. Rəsmi qurumlar qəsdən ictimaiyyətə yeritmək istəyirlər ki, guya hər şey normaldır, sosial tələblərlə etiraz eləyənlər yoxdur, etiraza edənlər radikallardır, siyasi təşkilatlardır. Bu görüntünü yaratmaq cəhdi boşunadır. Çünki ölkədəki iqtisadi böhran yüz minlərlə insanı ailəsinin dolandıra bilməmək vəziyyəti ilə üz-üzə qoyub. Bu cür ailələr, vətəndaşlar ənənəvi televiziya təbliğatlarına uymayacaqlar. Onlara təbliğat yox, hökumətin onların dolanışığını təmin edəcək real addımları lazımdır. İqtisadi böhranı şəxsi həyatında yaşayan, uşağına çörək almağa pul tapa bilməyən insanları radikal ekstremistlər adlandırmaq insanları daha da narazı salacaq. İllərdir müxalifətə, siyasi fəallara, QHT-lərə, dindarlara qarşı həyata keçirilən ənənəvi anti-təbliğat təəssüf ki, sosial tələblərlə aksiya keçirən sadə insanlara qarşı keçirilir. Bunun yaxşı nəticəsi olmayacaq. Çıxış yolu müxalifətə qarşı illər uzunu tətbiq edilən metodları sadə əhaliyə qarşı da tətbiq etmək deyil. Çıxış yolu ciddi iqtisadi, siyasi islahatlara başlamaq, əhalini dinləməkdir".

**T.Abbaslı vurğuladı ki, sovet dövründəki düşüncə tərzi bu gün hakimiyyətdəki bir çox adamlarda hələ də qalır:** “Onların düşüncəsi belədir ki, kim etiraz edirsə, o, ya ekstremistdir, ya əyyaşdır, ya narkomandır. Bu düşüncə ilə xalq narazılığının qarşısını almaq mümkün olmayıb və olmayacaq. Əgər mümkün olsaydı 1990-cı illərin əvvəlində meydanlara çıxan xalqa narkoman deyən o dövrkü Moskvanın tabeliyindəki hökumət duruş gətirərdi. SSRİ-nin gücü bugünkü Azərbaycanın gücündən daha böyük idi. Amma xalq etirazlarının qarşısını ala bilmədi. İqtisadi, sosial tələblərlə meydana çıxan xalq etirazlarının qarşısının alınmasının yeganə yolu problemləri həll eləməkdir”.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 11 (6332) 16 yanvar 2016

**Daha heç nəyi gizlətməyin yeri yoxdur. Vəziyyətin yaxşı olmadığını hər kəs bilir. Ölkədə böhranın olduğunu inkar etmək də çıxış yolu deyil. Ancaq eyni zamanda "biz vaxtilə filan sözü demişdik" məzmunlu çıxışları, qıcıqlandırıcı, sərt reaksiya doğuran fikirləri də kənara qoymaq, vəziyyətin yaxşılığa doğru dəyişməsinə təkan verə biləcək addımlar atmaq lazımdır.**

Elşad PAŞASOY
epashasoy@yahoo.com



# Qorxulu ssenaridən xilas yolu

**Bölgələrdəki etirazların ardınca sosial şəbəkələrdə Bakı və Sumqayıtda da aksiyaların keçiriləcəyi, hətta "üsyan" olacağı ilə bağlı xəbərlər yayılmaqdadır. Ən təhlükəlisi odur ki, bu aksiyaların təşkilatçısı yoxdur, kortəbii keçirilir, hansısa siyasi qüvvə burada flaqman rolunda çıxış etmir.**

Hakimiyyətin ayrı-ayrı partiyaların rəhbər şəxslərinə aksiyalara qatılmamaqla bağlı xəbərdarlığı da çıxış yolu deyil. Bir mərkəzdən idarə olunmayan aksiyaların fəlakətli sonluqları ola bilər, təhlükə budur!

**Xüsusilə də müxalifət düşərgəsi seyrçiliyə son verib fəaliyyətə başlamalıdır.** Əgər mövcuddursa... Söhbət heç də kütləvi etiraz aksiyalarından getmir. Hərçənd bu da bir variantdır. Kütlənin pərakəndə, başıpozuq aksiyalarındansa, başında sivil müxalifətin dayandığı idarəolunan etirazlar həm hakimiyyət, həm də bu dövlət üçün daha məqbul variant olardı. Aksiyanın gedişində müxalifət liderini çağırıb onunla danışmaq, xəbərdarlıq etmək olur, ancaq meydana elə radikal qüvvələr çıxa bilər ki, söz belə eşitməz.

**12-13 yanvarda rayonlardakı qəzəbli kütlənin qəfildən küçələrə axışmasından kimlərsə sevinməsin.** Evində çörəyi olmayan, küçəyə əlində çapacaqla çıxan adam çox qorxuludur. Bu kimi spontan aksiyaların Orta Şərqdə nələrə gətirib çıxartdığını hamımız görməkdəyik. İndi daha rejimə qarşı mübarizənin arxa pana keçdiyi Suriya beynəlxalq güclərin poliqonuna çevrilib, kim ordan keçirsə, İŞİD-i bəhanə edib bombasını atır, dinc insanlar məhv olur, qaçqınlıq, səfalət, göz yaşı... Odur ki, baş verən fəlakətləri gözümüzün qabağına gətirib maksimum ehtiyatlı davranmalıyıq. Azərbaycanı qana sürükləyənlərə "yox" deməliyik!

**Hərçənd hələ də öz məsuliyyətini dərk etməyənlər var: xalqın dərisini soymağa hazır sahibkardan tutmuş, camaata "köpək oğlu" deyə xitab edən başçıya qədər.** Belələri başa düşmür ki, hər an hansısa qüvvələr Azərbaycanda çox qorxulu ssenariləri işə salmaq üçün ehtiyatsız ifadə və hərəkətlərdən istifadə edə bilər.

**Bəli, bu gün ölkədə problemlər var, işsizlik artır, məmur özbaşınalığı o həddədir ki, hətta ölkənin başçısı da bunu etiraf edir.** Lakin bu problemləri küçədə həll etmək sadəcə mümkünsüzdür. Ona görə də Pənah Hüseyn demişkən, soyuq başlar və cəsarətli ürəkləri birləşdirilməsi zamanıdır.

**Müxalifətin beyin mərkəzləri bir araya gəlib elə müstəqil ekspertlərin, hətta hakimiyyət təmsilçilərinə dəvətlər göndərməklə vəziyyəti ciddi təhlil edə, ortaya konkret mövqelər qoya, hökumətə rəsmən dəstəyini ifadə edə bilər.** Ayrı-ayrı partiyalardan təkliflər verilib, ancaq daha yaxşı olar ki, ümumi düşərgənin adından iqtidara şərti adı "xilas formulu" olan bir paket təqdim olunsun. Artıq hakim düşərgə də bir ay əvvəlkindən fərqli olaraq belə təşəbbüslərə mənfi münasibətdə deyil, "müxalifətçilər də bu ölkənin vətəndaşlarıdır", "təkliflərini versinlər, müzakirə edək" deyirlər.

**Belə mövqelərin qarşılığında müxalif düşərgə də hərəkətə keçməlidir, "bu gün tezdir, sabahsa gec ola bilər" prinsipi ilə davranılmalıdır.** 81 yaşlı baş naziri olan hökumətdən islahat gözləməyi mümkün saymayanlar da haqlıdır. Ancaq inkar edirsənsə, alternativ qoy ortaya. Elə isə buyursunlar, daha gənc komanda ilə Nazirlər Kabinetinə nümunə göstərin, hər gün bir partiyanın qərargahında toplaşın, iqtisadi komandanızın təşəbbüslərini ictimaiyyətə təqdim etsinlər...

**Ətrafa baxaq, qonşularımızda da vəziyyət yaxşı deyil.** Türkmən manatı, qazax təngəsi, rus rublu, gürcü larisi, türk lirəsi, erməni dramı da dollar qarşısında çöküb. Ancaq hələ ki, Azərbaycan əhalisinin 33 faizi aclıqdan əziyyət çəkən Tacikistana yardım edən ölkələr arasındadırsa, demək vəziyyətimiz kritik deyil. Bizim hələ 40 milyardlıq ehtiyatımız var, acından öləcək vəziyyətdə deyilik. 90-cı illərdə də çörək növbələri var idi. Yadımdadır, tələbə yoldaşlarımla hətta icra hakimiyyətinin yeməkxanasında borş sifariş eləsək də, çörək olmadığından bazara gedib qurumuş çörək tapdıq, sevincək qayıdıb borşumuzu yedik. Növbələr də ki, öz yerində...Bu gün o durumda deyilik, amma 90-cı ildəki qədər sabaha inamlı deyilik, problem bundadır. İnamsız adamın əlində intihar etmək, qonşusunu öldürmək, üsyana qalxmaq çətin deyil. Cəmiyyəti konkret addımlarla sabahın yaxşı olacağına inandırmaq lazımdır.

"MTN işi" sübut etdi ki, hətta hakimiyyətin daxilində də bu dövləti sarsıtmaq, xalqa ağır zərbələr vuran, ölkədə iqtidar-xalq çatışması salmaq istəyən qüvvələr varmış. Kim bilir, bəlkə hələ ifşa olunmayanlar da var, bəlkə onlar hansısa laboratoriyalarda hazırlanmış ssenarilərin icraçılarıdır, bu xalqı üsyana sürükləməyə məqam gəzirlər. Aksiyalarla bağlı keçirilən həbslər bu dəfə yalnız müxalifəti deyil, yerli hakimiyyət nümayəndələrini və polisləri də əhatə edir. İlk dəfədir ki, belə bir hadisə ilə qarşılaşırıq. Bunun özü ciddi və düşündürücü olaydır.

**İş və çörək tələbilə küçələrə çıxmış sadə xalqın etirazlarından bir gün hansısa qüvvələrin maraqları üçün istifadə olunmayacağına kim zəmanət verə bilər?** Heç kim. Əmin olun, məkrli niyyətləri olanlar üçün bayrağın, dövlətin dəyəri yoxdur, onlar öz məqsədləri üçün istənilən fəlakətlərə gedərlər.

**Odur ki, hər birimiz məsuliyyətimizi dərk etməliyik.** Fərqi yoxdur, iqtidar, ya müxalifət, fəhlə, ya kəndli, deputat, ya sahibkar olsun, hər kəs vəziyyətin ciddiliyini nəzərə almalıdır. Müstəqil dövlətin boş qalan büdcəsini bir gün doldurmaq olar, amma itirilən müstəqilliyi bərpa etmək üçün bəzən əsrlər lazım olur, qarşıdurmada itirilən insanları isə bir daha geri qaytarmaq mümkünsüzdür. Müstəqilliyimizin və bir-birimizin qədrini biləh! Biz vətəndaş qarşıdurmalarını ən yaxın tariximizdə görmüşük, o ağrıları yaşamışıq, Qarabağı həm də buna görə itirmişik...

**Kimlərsə vəziyyətin hakimiyyət dəyişikliyinə aparıb çıxaracağını düşünürsə, sadəlövhlük edir.** Müxalifətin olan-qalan qüvvələri ən yaxşı halda məhz bu hakimiyyətin ölkəni böhrandan çıxarmağa sövq etməlidir. Əgər bu xalqın və dövlətin taleyini düşünürsə. Qoy komandada ciddi islahatlar olsun, gənc, enerjili kadrlar gəlsin, ASAN xidmətdəki məmurlar hökumətə transfer olunsun və zəhmət çəkib ölkəni vəziyyətdən çıxartsınlar.

**Qərbdən Azərbaycana sanksiya təhdidləri də ortadan qalxmayıb.** Ölkəmizə tələ quranlar çox istərdi ki, Azərbaycan qarışsın, hakimiyyət vətəndaşlara qarşı sərt tədbirlərə başlasın və "Azadlığı müdafiə aktı" adında növbəti sanksiya qərarları qəbul olunsun. Odur ki, iqtidar da ehtiyatlı davranmalıdır. Əgər onun müdafiəçilərindən biri Zahid Oruc da bu gün xalqı narazı salan məmurun yox, xalqın yanında olduğunu bəyan edirsə, bu, çox yaxşı haldır. Belə nümunələrin sayı çox olarsa, fəlakətlərdən qaçmaq çətin olmayacaq.

**Dünənə qədər xalq seçirdi, saxtakarlar dövriyyəyə girsə də.** Bu gün xalqı - korrupsiyaya, rüşvətə, inhisara, bahalığa, yoxsulluğa, işsizliyə "yox" deyənləri seçmək məqamıdır. Əmin olun ki, bu xalq aza qane olandır, gözü toxdur, sadəcə bir balaca diqqət göstərmək, saygılı davranmaq bəs edər. Bu gərgin günlər də ötüb keçəcək, bu keçidi elə adlayaq ki, sonra bir-birimizdən utanmayaq, itirdiklərimizə görə heyfslənməyək...

## AZAL qiymətləri endirəcək



**Azərbaycan Hava Yolları QSC (AZAL) yaxın günlərdə qiymət siyasətinə dəyişiklik edəcək. Bu haqda musavat.com-a AZAL prezidentinin ictimaiyyətlə əlaqələr üzrə köməkçisi Paşa Kəsəmənski məlumat verib.**

O, bildirib ki, hazırda qiymətlərin endirilməsi haqqında müzakirələr gedir: "Ən populyar reyslər üzrə gediş və qayıdış biletlərinin qiyməti endiriləcək. Yaxın zamanlarda qərar ictimaiyyətə açıqlanacaq".

❑ Nərgiz LİFTİYEVA

## Səhiyyə Nazirliyi aşkarlanan saxta diplomların sayını açıqladı




**Ötən il Azərbaycanda 38 saxta diplom aşkarlanaraq, toplanmış materiallar hüquqi qiymət verilməsi üçün Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə göndərilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, bu istiqamətdə həmin qurumla birgə müvafiq tədbirlər davam etdirilir. Məlumata görə, 2011-ci ildə başlayan tibb işçilərinin sertifikasiyası ilə əlaqədar Səhiyyə Nazirliyi tərəfindən səhiyyə müəssisələrində çalışan tibb işçilərinin təhsil haqqında diplomlarının araşdırılması nəticəsində ümumilikdə 142 saxta diplom aşkarlanıb.

**Qeyd olunub ki, Səhiyyə Nazirliyinin "Qaynar xətt" əlaqə mərkəzinə neqativ hallarla bağlı daxil olmuş 690 məlumat araşdırılıb.**



## Çörək ucuz olsa bölgələrdə etirazlar səngiyəcək?

### İqbal Ağazadə: "Bu, müvəqqəti xarakter daşıyır"

### Ərəstun Oruclu: "Görünən odur ki, hökumət islahatlardan yayınmaq naminə bu addımlara əl atır"

**Manatın ikinci dəfə kəskin devalvasiyaya uğraması nəticəsində ölkəni bürüyən növbəti bahalaşma dalğası bölgələrdə etirazlara və insanların küçələrə çıxmasına səbəb oldu. Xüsusən strateji məhsul olan unun 50 faizdən artıq, çörəyin qiymətinin isə 30 faizə yaxın artması insanların ayağa qalxmasına səbəb oldu. İnsanlar aksiyalarda əsasən, işsizlikdən və bazarlardakı bahalaşmadan narazılıqlarını bildirdilər.**

Buna adekvat olaraq, hökumətin qərarı ilə buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı 15 yanvar 2016-cı il tarixindən etibarən əlavə dəyər vergisindən azad olundu. Nəticədə, daşınma xərclərindən asılı olaraq 50 kiloqramlıq 1 kisə unun qiyməti 21 manat 50 qəpiklə 22 manat 50 qəpik arasında, pərakəndə satış qiyməti isə 23 manatla 24 manat arasında formalaşıb. Unun yeni qiymətinə uyğun olaraq, 500 qramlıq çörək 30 qəpiyə, 700 qramlıq çörək isə 40 qəpiyə satılacaq. Ekspertlər isə deyir ki, unun və çörəyin ucuzlaşdırılması əhalinin sosial problemlərinin həlli, regionlarda etirazların səngiməsi üçün yetərli deyil. Hökumət ciddi islahatlara getməsə, ayrı-ayrı vaxtlarda bu cür etiraz dalğası müşahidə ediləcək.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** bildirdi ki, çörəyin ucuzlaşması ictimai qəzəbi müvəqqəti sakitləşdirə bilər, lakin bu daimi olmayacaq: "Mən inanmıram ki, çörəyin qiymətini uzun müddət bu səviyyədə saxlamaq mümkün olsun. Çünki çörək satanın da qazancı olmalıdır ki, o bahalaşan digər istehlak mallarını ala bilsin. Bazar təkcə çörəklə tənzimlənmir. Bu, müvəqqəti xarakter daşıyır, yəqin ki, bir müddətdən sonra qiymətlər qalxacaq. 18 faizlik əlavə dəyər vergisinin ləğv olunması da bir çuval unun içində çox kiçik rəqəmdir. Unun qiymətinə diqqət yetirsəniz, 17-18 manatla 30-35 manat arasında dəyişmişdi. Bu kifayət qədər ciddi fərqdir. 18 faizlik ƏDV-nin ləğv edilməsi qiyməti tənzimləmək üçün yetərli olmayacaq. Unun qiyməti ona görə bahalaşır ki, digər istehlak malları da qalxır, çörək biznesi ilə məşğul olanlar da digər malları alırlar. Onlar da Azərbaycanda yaşayırlar və bazarın qiymətləri ilə bazarlıq edirlər".

**Partiya sədrinin sözlərinə görə, bu problemin həlli üçün kompleks tədbirlər lazımdır:** "Aksiyalara gəlincə, hələlik bu barədə proqnoz vermək istəmirəm. Amma hesab edirəm ki, vəziyyətin bu dərəcəyə çatmasına imkan vermək olmaz. İmkan vermək olmaz ki, aksiyalar əhali ilə polis arasında qarşıdurmalarla, konfliktlə müşayiət olunsun. Bu durumun sistemli, ardıcıl islahatlarla tənzimləmək lazımdır. Hesab edirəm ki, çörəyin qiyməti endirilsə də, bu və ya digər şəkildə etirazlar davam edəcək".

**Politoloq Ərəstun Oruclu** da vurğuladı ki, təkcə çörək və unun ucuzlaşması heç nəyi həll etməyəcək: "Çörəyin ucuzlaşması nə deməkdir? Əhali yalnız unla, çörəklə yaşamalıdır? Bu bir qədər gülünc səslənir. Görünür, ölkə üzrə belə bir tapşırıq verilib. Əhaliyə un paylanır, unun-çörəyin qiyməti aşağı salınır. Bu situasiyanı xilas eləmir. Bu yanlış bir addımdır. Bu insanları təhqir etməkdir ki, çörəyi yeyin, evinizdə sakit oturun. Mən bunu əvvəl də demişəm, indi də deyirəm ki, ölkədə ciddi islahatlara başlamaq lazımdır. Deyək ki, bir neçə ay əhaliyə pulsuz çörək paylandı. Bəs, sonra necə olacaq? İnsanlar digər ehtiyaclarını necə ödəyəcək? Təkcə çörəklə yaşamaq mümkündürmü? Məlum deyil ki, bu cür yanaşmaların müəllifi kimdir. Görünən odur ki, hökumət islahatlardan yayınmaq naminə bu addımlara əl atır".

**Politoloqun sözlərinə görə, nə qədər ki, ölkədə iqtisadi, hüquqi islahatlar gecikəcək, vəziyyət bir o qədər ağır olacaq:** "Ola bilər ki, çörəyin ucuzlaşması bir neçə ay vəziyyəti xilas etsin. Lakin bir neçə aydan sonra bu da mümkün olmayacaq. O zaman nə edəcəklər? Anlaşılmayan budur ki, niyə islahatdan bu qədər qorxub çəkinirlər. Halbuki indiki şəraitdə ölkənin, xalqın, iqtidarın özünün yeganə xilas yoludur. İslahat aparmaq üçün hökumətdə oturmuş yaşlı, sovet düşüncəli insanları vəzifədən kənarlaşdırmaq lazımdır. Ancaq bunu etmirlər, əksinə, görünən odur ki, həmin şəxslərin sözünün çəkisi durmadan artır. Bölgələrdə qalxan etirazlar da onların siyasi təfəkkürünün nəticəsidir. Bu vəziyyətdən çıxış yolu deyil. Bunu bir gün anlayacaqlar, lakin o zaman artıq gec olacaq".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 11 (6332) 16 yanvar 2016

# Zahid Orucun tənqid etdiyi məmurlar Alp dağlarında nə edib?

## Fantastik istirahət qiymətləri, inanılmaz tariflər

**Son günlər bir-birinin ardınca sərt açıqlamalar verən deputat Zahid Orucun rezonans doğuran tənqidlərindən biri də deputat həmkarlarına yönələnlərdir. Xatırladaq ki, Z.Oruc hazırda təmsil etdiyi regionda etirazlar olan, buna baxmayaraq xaricdə istirahətini davam etdirən həmkarlarına da səslənib:**

"Hökumət bu gün ekranda, məmurlar bölgələrdə olmalıdır. O cümlədən, bilavasitə sahəvi nazirliklərin təmsilçiləri məsələni daim müzakirədə saxlamalıdır. İnsanlara o inamı verməк lazımdı ki, ortada şayiə şəbəkələrindən, böhrandan qazanmaq istəyənlərdən xilas ola bilək. Parlamentin üzərinə düşən vəzifə heç də hökumətdən az deyil. Parlament üzvü kimi həmkarlarımın fəaliyyətini təftiş etməkdən çox uzağam. Etiraz olan bölgələrdə, o rayonun təmsilçiləri haqda da mənfi fikir söyləmək istəmirəm.

Onların da hər birinin səlahiyyət çərçivələri var. Amma indi xalqın yanında olmalıdırlar. Bu gün başlıca vəzifə ölkə rəhbərinin kursuna uyğun olaraq prosesi insanlara izah etmək, problemin hansısa formada həllinə inandırmaqdır. Bu gün kimsə Alp dağlarının ətəyində istirahət edə bilər, amma oradan döndükdən sonra əhaliyə baş çəkməlidir".

Və bu açıqlamanın ən sərt qismi heç şübhəsiz ki, "Alp dağlarında istirahət edənlər"lə bağlıdır. Heç kəsə sirr deyil ki, qış turizmi öz məsrəfinə görə hər zaman yay turizmini geridə qoyub. Xüsusən də söhbət Alp dağlarında baş tutanlardan gedirsə. Çünki dünya milyonçularının ən çox tərcih etdiyi qış tətili xizək sürməklə, kamin başında şərab içməklə, kanata minməklə dağların ətəyində baş tutandır.

"Yeni Müsavat" Z.Orucun nəzərdə tutduğu deputatların hansı şərtlər və tariflərlə qış tətili keçirə biləcəyi ilə bağlı araşdırma aparıb. Ortaya ilginc qiymətlər çıxıb. Öncə ondan başlayaq ki, Alp dağları ümumiyyətlə 4 ölkə ərazisinə düşür. İsveçrə, Avstriya, Fransa, İtaliya. Sözsüz ki, bu ölkələrin dağətəyi zonalarında bir-birindən fərqli, komfortlu turizm obyektləri fəaliyyət göstərir.



### Ən ucuz Alp tətili 4000 dollardır

Öncə İsveçrədəki tətil şərtlərinə diqqət yetirək. Xatırladaq ki, adını sadaladığımız ölkələr sırasında turizm şərtləri ən baha olan ölkə İsveçrə sayılır. Amma bunun da minimum və maksimum sayılacaq hədləri mövcuddur. Hesab edək ki, məmurlar tətil ən ucuz şərtlər daxilində tətil seçimini edirlər. Bu halda qiymətlər necə olacaq?

Ən ucuz tətil -

Turist Ukrayna Hava Yollarından Bakı-Sürix - Bakı marşrutu üzrə gediş-dönüş biletini 450 dollar ətrafında əldə edə bilər. Sürixə çatan turist qatarla Davosa yetişə bilər. Bir nəfərin qatar bileti 60-100 dollar civarındadır. Orda 3 ulduzlu oteldə qalacaqsa, həmin otellərin bir günlük qiyməti 150-200 dollar arasındadır. Bu qiymətə səhər yeməyi daxil deyil. Səhər yeməyi üçün əlavə 25-30 frank ödəmək lazımdır. Nahar və şam xərclərinə gəlincə, bunun da hər biri 50 dollar məbləğində hesablanmalıdır.

Alp dağlarına gəlib, xizək sürməmək günahdır. Xizək sürmənin, funikulyora minmənin gündəlik tarifi 46 dollardır. Xizək və xizək sürmək üçün xüsusi geyimin kirayəsi isə (ən azı bir həftəlik olsa) 800 -1000 dollar dəyərindədir.

Beləcə, bir həftəlik və ən ucuz Alp dağları istirahəti 4000 dollar civarındadır. Təbii ki, məmurun bura tək yox, ailəsi ilə getdiyini nəzərə alanda, söhbətin minimum 8.000-16.000 dollardan getdiyini təxmin etmək olar.

### Orta və lüks tariflər baş gicəlləndirir

Keçək orta tariflərə. Bu halda da İsveçrəyə getmək istəyən şəxs nisbətən komfortlu şərtlərlə, Türk Hava Yolları və ya Lüfhansla Sürixə uça bilər. Bu halda bilet qiyməti 700-1100 dollar arasında dəyişir. Ən azı dörd ulduzlu oteldə qalmaq istəyən turist günlük 250-350 dollar arasında məbləğ ödəməlidir. Orda gündəlik bir nəfərin yemək xərci minimum 100 dollardır. Xizək və geyim xərci də yuxarıda yazdığımız kimidir. Bu halda isə bir məmurun bir həftəlik-on günlük tətil 6500 dollara başa gəlir. Bunu da ailə boyu hesablayanda 13.000-26.000 dollardan söhbət getdiyini anlamaq çətin deyil.

Və gəldik lüks tətil tariflərinə. Heç kimə sirr deyil ki, məmur tətilə çıxıbsa, mütləq hər şeyin ən lüksündən istifadə etmək istəyəcək. Bu halda ilk növbədə ən rahat reys üzrə biznes klass biletini alacaq. Bakı-Sürix-Bakı reysi üzrə ya Türk Hava Yolları, ya da Lufthansa ilə biznes klassda uçmaq istəyənlərin bilet qiyməti tarifləri 4000-6000 dollar arasında dəyişir. Beşulduzlu otellərdə bir gecəlik otaq nömrəsi 650-1200 dollardır. Bura yüksək standartlı suit nömrə daxil deyil. Sonuncunun bir gecəlik qiyməti, məsələn, Sank Moris Badrud Palace otelində 12 min dollarla 250 min dollar arasında dəyişir. Lüks sevən şəxs təbii ki, dağlarda yerləşən otelə qatarla yox, taksi ilə gedəcək. Taksinin bir kilometri 5 frankdır. Aeroportdan Sank Morisə 220 kilometr yoldur. Bu da 1100 dollardır. Limuzinlə gedərlər üçünsə təkcə otelə varma tarifi 1500 dollardır.

### Bir fincan qəhvə 9-12 dollardır

Günlük yemək xərclərindən əlavə əylənmək üçün axşam bara gedənlər də olacaq. Beşulduzlu oteldə bir fincan qəhvə 9-12 dollar arasında dəyişir. Spirtli içkilər daha bahadır.

Dincələnlər eyni zamanda oteldəki SPA xidmətindən də istifadə edirlər. Masajın 50 dəqiqəsi 150-220 frank arası dəyişir.

Bu halda isə biz əyləncənin növündən asılı olaraq lüks tətilin bir nəfər üçün qiymətinin 15 min dollardan başladığını görə bilərik.

Ən baha qiymətlər İsveçrədədir. Ondan bir az ucuz Avstriyadakı kurort məkanları olan Lech, Kitzenbühi sayılır. Ruslarin isə İsveçrədən sonra ən çox tərcih etdikləri yer Fransa Alplarında yerləşən Khurshavel turistik qəsəbəsidir.

### Qış turizminin ürəyi burda döyünür

"Kitzbuhi Avstriyada yerləşən Kitzbuhel həm də Alp incisi adlanır. Bu düşərgənin 700 illik tarixi var. Dünyanın ən qədim turizm mərkəzlərindən olan Kitzbuhel həm də orijinallığı ilə seçilir.

Şamonix Mont-Blank" (Fransa) - 1924-cü il Qış Olimpiya Oyunları burada keçirilib. Alp dağlarının ikinci ən yüksək zirvəsi də turizm mərkəzinin ərazisindədir.

"Kortina" (İtaliya) - Dəniz səviyyəsindən 1200 metr hündürlükdə yerləşən bu kurort zonası Alp dağlarının ətəyindədir. 1956-cı ildə Qış Olimpiya oyunlarının səhnəsi olmuş Kortina həm də ən qədim qış düşərgələrindəndir.

**Dünya üzrə çox məşhur olan qış turizm obyektlərinin ilk onluğu siyahısı isə aşağıdakı kimidir:**

**1.** Vistler Blakkomp (Kanada) - Burada dünyada ən dik xizəksürmə yolları yerləşir. Mərkəzdə cürbəcür kafelər, buz içində restoran var. Burada Çin, Fransa. Yunanıstan, İtaliya, Meksika, Tailand və Aralıq dənizi mətbəxləri təklif olunur.

**2.** Kitzbuhel (Avstriya) - Həm də Alp incise adlanan bu düşərgənin 700 illik tarixi var. Dünyanın ən qədim turizm mərkəzlərindən olan Kitzbuhel həm də orijinallığı ilə seçilir.

**3.** Zermatt (İsveçrə) - burada dünyanın ən böyük dağ liftləri yerləşir.

**4.** Vail (ABŞ-Kolorado) - burada dünyanın ən böyük xizəksürmə meydançası yerləşir. Turizm mərkəzində həmçinin çoxlu sənət qalereyaları, hokkey meydançaları, muzeylər var.

**5.** Banff Alberta (Kanada) - bu turizm mərkəzinin əsas özəlliyi Luis gölü ətrafında dağlıq ərazidə yerləşməsidir.

**6.** Şamonix Mont-Blank (Fransa)-1924-cü il Qış Olimpiya Oyunları burada keçirilib. Alp dağlarının ikinci ən yüksək zirvəsi də turizm mərkəzinin ərazisindədir.

**7.** Styuve (ABŞ-Yeni İngiltərə ştatı) - burada 90 fərqli mağaza və 60 restoran fəaliyyət göstərir.

**8.** Tremblant (Kanada) - Bu düşərgəni Kanadanın ən böyük şəhəri olan Monrealdan 1 saatlıq yol ayırır.

**9.** Kortina (İtaliya) - 1956-cı ildə Qış Olimpiya oyunlarına səhnə olmuş Kortina həm də ən qədim qış düşərgələrindəndir.

**10.** Apsen (ABŞ-Kolorado) - Burada uca dağlarla dərin kanyonlar vəhdət təşkil edir.

❑ **Sevinc TELMANQIZI**




# Bakıda "qara bazar" da var, "exchange" də: 1 dollar = 1.70 manat

**Yanvarın 13-dən etibarən Mərkəzi Bankın İdarə Heyətinin təsdiqlədiyi "Mübadilə şöbələrinin təşkili və mübadilə əməliyyatlarının aparılması Qaydaları"na əsasən "exchange"lər bağlanıb.**

Bu qərardan sonra bütün banklar filial və şöbələrindən kənarda fəaliyyət göstərən valyuta dəyişmə məntəqələrini bağladı.

Bu addımın atılmasında səbəb ölkədə dolların süni şəkildə bahalaşmasının qarşısını almaq idi. Çünki "exchange"lər dollar kursunu öz istədikləri şəkildə müəyyən edə bilirdi. Bu səbəbdən idi ki, bir neçə gün əvvəl dolların valyuta dəyişmə məntəqələrində satış qiyməti 1.90 manatadək yüksəlmişdi. Yanvarın 8-də Mərkəzi Bankın xəbərdarlığından sonra dolların satışı 1.62 manat təşkil etdi. Bununla da dolların satış qiyməti Mərkəzi Bankın müəyyən etdiyi məzənnədən yalnız 4 faiz baha ola bilər.

"Exchange"lər bağlandıqdan sonra banklar qarşısında növbələr yaranıb. Bir çox iri banklar dollar satışından imtina etdiyi üçün dollar satışı həyata keçirən "Kapitalbank", "Azər Türk Bank" kimi bankların qarşısında növbələr yaranıb.

Banklarda dolların satış qiyməti 1.62-1.63 manat arasında dəyişir. Limit isə 1000 manatdır.

"Qara bazar" isə yenə də öz fəaliyyətindən qalmır. Hazırda daha çox bağlanan valyutadəyişmə məntəqələrinin olduğu yerlərdə əldə dollar satan alverçiləri görmək mümkündür. Onlar dolları 1.70 manatdan alıcılara təklif edirlər.

Dollar alverçiləri əsasən 28 May küçəsində, "Neftçilər" metrostansiyasının çıxışında və Sədərək ticarət mərkəzində olurlar.

Bəzi dollar alverçiləri isə bağlanan "exchange"ləri açaraq öz fəaliyyətlərini davam etdirirlər. Bunu gizli şəkildə edənlər də var. Məsələn, 28 May küçəsində qapılarını yarıya qədər açan dollar alverçiləri alış-satış həyata keçirirlər. Onlar əsasən daimi müştəriləri ilə işləməyə çalışırlar.

Bəzi dollar alverçiləri isə "exchange"in qapılarının müştərilərin üzünə taybatay açıb. Məsələn, "Neftçilər"də yerləşən əvvəllər "Kredit Yunayet Bank"a məxsus filial indi işləyir. Lakin bankın adı lentlə bağlanıb. Bu filialda dolların satış qiyməti 1.70 manatdır. Alış qiyməti isə 1.60 manatdır.

Xatırladaq ki, dekabrın 21-dəki devalvasiyadan sonra ölkədə qanunsuz olaraq dollar satışı ilə məşğul olan bir neçə şəxs saxlanılıb.

❑ **İlkin MURADOV**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Almaniyadan Qarabağla bağlı diplomatik həmlə

## ATƏT-in yeni sədri kimi Berlinin təşəbbüskarlığı artırmağa hazırlaşması nə vəd edir? Obyektiv mövqeli Almaniyanın vasitəçiliyə gətirilməsi danışıqlar prosesinə daha güclü stimul verərdi, əgər...; **amerikalı həmsədr:** "Bölgədə genişmiqyaslı müharibə regionu məhv edə bilər..."

**İlin ilk Qarabağ müzakirələri Londonda, ATƏT-in Minsk Qrupu həmsədrləri səviyyəsində başladı. Doğrudur, Böyük Britaniya konfliktin nizamlanmasında həlledici rol oynayan və yaxından iştirak edən ölkə deyil. Bu xüsusda Almaniya isə əksinə, yanvardan ATƏT-ə sədrlik etməyə başlamış iri dövlət, regional supergüc kimi sülh prosesinə əhəmiyyətli töhfə verəcək gücdədir .**



**Almaniyanın xarici işlər naziri Frank-Valter Ştaynmayerin ATƏT-də sədrliyin Belqraddan Berlinə keçməsi ilə bağlı yaydığı bəyanat belə bir qənaət yaradı. Nazir bildirib ki, "ATƏT sədri qismində Dağlıq Qarabağ və Dnestryanı münaqişələrin həllində aktiv rol oynayacaq".**

Onun sözlərinə görə, ölkəsinin ATƏT-dəki sədrliyi çətin dövrə təsadüf edir. "ATƏT-in dialoq üçün platformaya və qarşılıqlı etimada ehtiyacı var. Bundan əminəm", - deyə XİN başçısı vurğulayıb. Nazirin fikrincə, ATƏT məkanında uzunmüddətli təhlükəsizlik ancaq ölkələrin birgə səyləri ilə təmin oluna bilər. Valter Ştaynmayer həmçinin, onu da bildirib ki, Almaniya ATƏT sədri kimi Cənubi Qafqazda münaqişələrin həlli üzrə fəal səylər göstərəcək, ATƏT nümayəndəliklərinin fəaliyyətini aktivləşdirəcək.

Xatırladaq ki, Frank-Valter Ştaynmayer ATƏT Nazirlər Şurasının dekabrın 3-də Belqradda keçirilən 22-ci iclasında ölkəsinin sədrliyi dönəmində prioritetləri açıqlayıb. Nazir üç əsas istiqamətdə işləmək lazım olduğunu vurğulayıb: böhranlara reaksiya vermək; katibliyin, sahə missiyalarının və təşkilatların gücləndirilməsi; təhlükəsizliyin artırılması.

***

Avropa qitəsinin iqtisadi cəhətdən ən qüdrətli dövləti və nüfuzlu ölkəsi olaraq Almaniya şübhə yox ki, qeyd edilən istiqamətlərdə uğur qazanmaq üçün daha ciddi imkanlara malikdir - o cümlədən rəsmi Berlinin Qarabağla bağlı diplomatik həmləsi effektli ola bilər, bir şərtlə ki, Dağlıq Qarabağ məsələsində yenu təşəbbüskarlıq həmsədr dövlətlər tərəfindən də zəruri dəstək qazansın.

**Belə bir dəstək veriləcəkmi, yoxsa rəsmi Berlinin diplomatik fəallığına qısqanclıq göstərilib, onun səyləri yolunda əngəllər yaradılacaq? Söyləmək çətindir. Çünki Qarabağ məsələsində qlobal və regional böyük güclərin geosiyasi maraqları heç vaxt olmadığı qədər ciddi şəkildə toqquşur.**

Vəziyyəti tündləşdirən amillərdən biri də "Su-24" insidentinə görə Türkiyə-Rusiya münasibətlərinin korlanması və yeni durumun Qarabağ münaqişəsi zonasına da inikas etməsidir. Düzdür, Berlinin Ankara ilə əlaqələri müttəfiq xarakterlidir, hər ikisi NATO blokunun üzvləridir, Almaniya dünyanın ən böyük türk icması mövcuddur. Berlinin həmçinin, Moskva ilə də siyasi-diplomatik münasibətləri Rusiyaya qarşı məcburi sanksiyalara rəğmən, minimum səviyyədə qalır.

**Eyni zamanda həm Almaniya, həm də Türkiyə Rusiya qazının əsas alıcılarındandır. Bununla belə, geosiyasi maraqlar və ümumbəşəri dəyərlər Türkiyə kimi Almaniyanın da Rusiyaya tamamən əks siyasi qütbdə - fərqli hərbi və təhlükəsizlik düşərgəsində yer almasını şərtləndirib.**



Bu xüsusda bir şeyi əminliklə söyləmək olar ki, üç həmsədr ölkədən ABŞ və Fransa, eləcə də qardaş Türkiyə Almaniyanın Qarabağa dair təşəbbüslərini hərtərəfli dəstəkləyəcək, nəinki Rusiya. Hər necə olmasa, Vaşinqton da, Paris və Ankara da münaqişənin yeni qaynar fazaya keçməməsində, sülh prosesinin dalandan çıxmasında və Moskvanın konflikti öz maraqları naminə təzədən qızışdırmaq planlarının əngəllənməsində maraqlıdır.

***

Təsadüf deyil ki, rəsmi Vaşinqton Minsk Qrupdakı həmsədri Ceyms Uorlik vasitəsilə Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşünün maksimum qısa zamanda təşkil eləməyə, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının dialoqunu qurmağa çalışır. Bütövlükdə il məhz Ceyms Uorlikin Qarabağa dair diplomatik fəallığı ilə başlayıb.

"Azərbaycan və Ermənistan prezidentləri Dağlıq Qarabağ münaqişəsinin həllinin açarı əllərində olan iki insandır". Bu sözləri Uorlik Ermənistan mətbuatına müsahibəsində deyib. Diplomat bildirib ki, prezidentlər sülh prosesində irəliləyişə nail olmaq üçün tez-tez görüşməlidirlər.

**"Biz hərtərəfli sülh sazişinin çoxsaylı elementlərini müzakirə etmək üçün prezidentlərdən aşağı səviyyədə danışıqlar aparırıq. Bu kimi səylər etimad atmosferinin yaranmasına, gərginliyin azalmasına və münaqişənin tənzimlənməsi ilə bağlı dialoq mühitinin yaxşılaşmasına xidmət edəcək"** - qeyd edib amerikalı həmsədr.

Diplomat onu da vurğulayıb ki, hər iki prezident açıq şəkildə münaqişənin sülh yolu ilə həllinə sadiqliklərini bəyan ediblər: "Bu, onların dediyi sözlərdən də aydın olur. Genişmiqyaslı müharibə regionu məhv edə bilər və biz əminik ki, prezidentlər də bunu anlayır. Ümid edirik ki, 2016-cı ildə tərəflər həll prosesi ətrafında irəliləyişə nail olmaq üçün danışıqlar masası arxasında əyləşəcəklər, güc tətbiqindən çəkinəcəklər və prezidentlərin ümumi sülh məqsədini sarsıdacaq təhrikçi ritorikalardan əl çəkəcəklər".

***

Almaniyanın ATƏT sədri kimi fəaliyyətə başlaması fonunda bu səylərin nə dərəcədə effektli olacağı yaxın aylarda bilinəcək. Almaniyaya gəlincə, rəsmi Berlin Qarabağ məsələsində kifayət qədər obyektiv mövqeyi ilə tanınır. Əslində Minsk Qrupu həmsədrliyində Avropa Birliyini ermənipərəst Fransa yox, məhz Almaniya təmsil eləsəydi, danışıqlarda uzun illərdir özünü göstərən dalan da olmazdı. Ən azı ona görə ki, rəsmi Berlinin obyektiv mövqeyi işğalçı Ermənistanı şirnikləndirən hər hansı "həll variantı"nın, o sırada "Madrid sənədi"nin ortaya çıxmasını əngəlləyərdi.

**Bu mənada Almaniyanın Minsk Qrupu həmsədrliyində təmsilçiliyinə zərurət əslində öz əhəmiyyətini itirməyib - ya Fransanın yerinə, ya da 4-cü həmsədr kimi o, MQ rəhbərliyinə gətirilə bilər. Belə bir obyektiv münsifin həmsədrlikdə olması danışıqlar prosesinə məxsusi stimul verər, sülh yolunun tapılmasını asanlaşdıra, nəhayət, Minsk Qrupunun özünün çoxdan korlanmış ermənipərəst imicini yaxşılaşdırardı.**

## Müdafiə nazirindən işğalçılara xəbərdarlıq

## Zakir Həsənov: "Erməniləri dinc oturmağa qoymayacağıq..."



**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti əsaslı təmirdən sonra istifadəyə verilmiş Silahlı Qüvvələrin Hərbi Tibb Fakültəsində olub. Nazir çıxışında ordu həyatında tibb xidməti sahəsinin vacib istiqamətlərdən biri olduğunu xüsusi qeyd edib.**

"Əsgərin xidmət etdiyi bütün sahələrdə hərbi həkimlərin fəaliyyəti diqqəti cəlb edir. Belə olan halda hər bir həkim üzərinə düşən məsuliyyət hissini artırmalıdır. Bölmələrdə şəxsi və ictimai gigiyena qaydalarına əməl edilməsində komandir tələbkarlığının artırılmasında sizin fəaliyyətiniz yetərincə olmalıdır. Ordumuzda xəstəliklərə rast gəlinməməsi üçün bu istiqamətdə təxirəsalınmaz tədbirlərin müntəzəm şəkildə həyata keçirilməsi vacibdir. Şəxsi heyətin geyiminə, qidalanmasına, məişət şəraitinə nəzarət etməklə, əsgərin sağlamlığını tam qorumaq mümkündür. Dövlətin, xalqın güvəndiyi və torpaqlarımızı qoruyan hərbi qulluqçuların sağlamlığı hər birimiz üçün önəmlidir", - deyə nazir bildirib.

Sözünə davam edən Z.Həsənov işğalçı qüvvələrə bir daha xəbərdarlıq edib: "Azərbaycan Ordusu düşmənlə təmas xəttində tam üstünlüyü əldə edib. Artıq cəbhədə ermənilərin qorxuya düşdükləri heç kimə sirr deyil. Cəbhə xəttində son bir ildə ordumuz tərəfindən xeyli sayda düşmən məhv edilib. Nə qədər ki, ermənilər öz işğalçılıq siyasətindən əl çəkməyib, cənab prezidentin dediyi kimi, "torpaq düşmənlərin ayaqları altında od tutub yanmalıdır". Erməniləri işğal etdikləri ərazilərdə dinc oturmağa qoymayacağıq. Bizim məqsədimiz budur".


**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi**

# Sürücülər üçün yeni qaydalar gəlir



**Sürücülük vəsiqəsi, etibarnamə və qeydiyyat şəhadətnaməsi üzərində olmayan sürücüləri cərimələmək üçün yeni qaydalar tətbiq ediləcək. İctimaiyyətdə son günlər müzakirə edilən bu məsələ ilə bağlı musavat.com-a danışan Baş Dövlət Yol Polis İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev yeni qaydalar barəsində aşağıdakıları bildirib:**

"Yeni qaydaların nədən ibarət olacağını söyləyə bilmərəm. Deyilən məsələlər yeni İnzibati Xətalar Məcəlləsi ilə bağlıdır. Bu isə hələ ki, Milli Məclisdə müzakirədədir. Nə zaman qanun qəbul edilər və bu, qanuni şəkildə qüvvəyə minər, o zamana açıqlama verə bilərik. Hələ ki bununla bağlı dəqiq tarix bəlli deyil".

Qeyd edək ki, hazırda qüvvədə olan qanunvericiliyə görə, həmin sənədlər sürücünün üzərində olmadıqda onlara 3 saat vaxt verilir. Həmin müddət ərzində sənədlər gətirilərək polisə təqdim edildikdə avtomobil cərimə meydançasına aparılmır. İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklə bu güzəştin aradan qaldırılması gözlənilir.

❑ **Əli RAİS**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Prokuror varlı qadınları boğub qarət edən keçmiş polislərə cəza istədi



**Bakı Ağır Cinayətlər Məhkəməsində qəsdən adam öldürməkdə, quldurluqda, narkotik vasitələrin qanunsuz dövriyyəsində və qaçaqmalçılıqda ittiham olunan Naxçıvan şəhər sakinləri Şakir Orucov, Röyal Əhmədov, Rəşad Tağıyev və Rəhim Səttarovun cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə hakim Rasim Sadıqov sədrlik edib. Dövlət ittihamçısı çıxış edərək Şakir Orucova ömürlük, Röyal Əhmədova 20 il, digərlərinə isə 14 il azadlıqdan məhrumetmə cəzası verilməsini istəyib.

Məhkəmə prosesi 21 yanvarda davam edəcək. Qeyd edək ki, Ş.Orucov Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Mühafizə Şöbəsinin polis nəferi vəzifəsində işləyən zaman Röyal Əhmədovla cinayət əlaqəsinə girib. Onlar 2012-ci ildə Naxçıvan şəhəri, İstiqlal küçəsi, bina 23, mənzil 9-da yaşayan Axundova Nəsibə Nüsrət qızının imkanlı adam olmasını biliblər və onu öldürərək evini qarət etmək qərarına gəliblər. Daha sonra həmin şəxslər qadının evinə basqın ediblər və evdən 60 min manat və xeyli miqdarda qızıl oğurlayıblar.

Ş.Orucov və R.Əhmədov imkanlı ailə olduqlarını güman edərək Tahirə Əhmədovanın evinə basqın ediblər və 6 min manat dəyərində qızıl oğurlayıblar. Lakin qadın evdə olmadığı üçün onu öldürə bilməyiblər. Şakir Orucov və Röyal Əhmədov cinayətkar əməllərini davam etdirmək məqsədilə Bakı şəhərinə gəliblər. Paytaxtda Rəşad Tağıyev və Rəhim Səttarovla cinayət əlaqəsinə girərək bir neçə quldurluq cinayəti törədiblər.

2015-ci ilin fevralında isə Rəşad Tağıyev Raci İsgəndərovla qabaqcadan əlbir olub, İran İslam Respublikasından narkotik maddə gətirən zaman sərhəd-keçid məntəqəsində tutulublar.


### Nərimanov Rayon Məhkəməsinin həyətində (Montində) 2 maşınlıq daş qaraj satılır

Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuzdur. Sənədi var.

**Telefon: (050) 264-49-99**




## Maşın ustası 15 evi yardı

**Abşeron rayonunda silsilə oğurluqlar törədən şəxslər saxlanılıb. Saxlanılan şəxslər 15-dən çox evi qarət ediblər. 35 yaşlı Xəqani Əliyev avtomobil ustası olmasına baxmayaraq, 4-5 aydır ki, oğurluqla məşğuldur. Abşeron rayonu ərazisində 15-dən artıq evi qarət edən Xəqani əvvəcə evlərin yerini müəyyənləşdirib. Ona oğurluq planlarını həyata keçirməkdə vaxtilə evində kirayədə yaşadığı evin azyaşlı oğlu kömək edib.**

Azyaşlı da saxlanılıb və ifadəsi alınıb. Xəqani Əliyev oğurladığı əşyaları özünə məxsus avtomobillə daşıyıb. Həmin əşyaların bir hissəsini satmağa nail olan Xəqani əldə etdiyi pulun hamısını əyləncəyə xərclədiyini deyir: "Pula çox ehtiyacım yox idi. Barlara xərcləyirdim".

Faktla bağlı saxlanılan şəxs barəsində Cinayət Məcəlləsinin 177.2-ci (oğurluq) maddəsi ilə cinayət işi başlanılıb, araşdırma aparılır.

## Bakıda iki piyadanı maşın vurub

**Bakıda iki piyadanı maşın vurub. Bu barədə 3 saylı Şəhər Klinik Xəstəxanasından məlumat veriblər. Hadisələrdən biri Sabunçu rayonun Kürdəxanı qəsəbəsində qeydə alınıb. Belə ki, qəsəbə sakini 1984-cü il təvəllüdlü İmranov Elməddin Telman oğlu yolu keçmək istəyərkən onu maşın vurub. Yaralı təcili yardım vasitəsilə 3 saylı Şəhər Klinik Xəstəxanasına gətirilərək dərhal əməliyyat olunub.**

**Həkim-travmatoloq Mərziyyə Hüseynova**nın APA-ya verdiyi məlumata görə, hazırda xəstənin vəziyyəti stabildir və həyatı üçün heç bir təhlükə yoxdur: "Müayinə ona zamanı döş qəfəsinin əzilməsi qarnın küt travması diaqnozu qoyulub. Xəstəyə dərhal müdaxilə edilib. Hazırda vəziyyəti orta-ağır stabildir".

Sabunçu rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, piyadanı vuran avtomobilin sürücüsü hadisədən sonra qaçıb. Hazırda avtomobilin müəyyən edilməsi istiqamətində iş aparılır.

**Digər piyada vurma hadisəsi isə Xəzər rayonunun Mərdəkan qəsəbəsində qeydə alınıb.** 1960-cı il təvəllüdlü Babazadə İradə Arif qızı yolu keçmək istəyən zaman avtomobil tərəfindən vurulub. O, təcili yardım maşını ilə 3 saylı Şəhər Klinik Xəstəxanasına çatdırılıb. Həkim-travmatoloq Mərziyyə Hüseynovanın APA -ya verdiyi məlumata görə, hazırda xəstənin vəziyyəti stabildir və həyatı üçün heç bir təhlükə yoxdur: "Xəstə kliniki müayinədən keçirildi. Müəyyən olundu ki, onda qapalı kəllə beyin travması, baş beyin sirkələnməsi, döş qəfəsinin və qarnın küt travması, soltərəfli oturaq sümüyün qapalı yerdəyişmə ilə sınığı var. Xəstəyə dərhal müdaxilə olundu və reanimasiya şöbəsinə köçürüldü. Hazırda xəstənin vəziyyəti orta-ağır stabildir".

Qeyd edək ki, İradə Babazadəni vuran avtomobil də hələlik müəyyən olunmayıb.

Faktı Xəzər rayon Polis İdarəsi araşdırır.

## Yasamalda 26 yaşlı gənc benzinlə özünü yandırdı

**Bakıda intihara cəhd hadisəsi baş verib. Musavat.com xəbər verir ki, hadisə bir neçə gün əvvəl Yasamal rayonu ərazisində baş verib. M.Muxtarov küçəsi dalan 2, ev 3-də yaşayan Bakı sakini 1989-cu il təvəllüdlü Yusif Əbdül oğlu Salmanov üzərinə benzin tökərək intihara cəhd edib. Ailə üzvlərinin müdaxiləsindən sonra o, xəstəxanaya aparılıb. 5 saylı Şəhər Klinik Xəstəxanasına yerləşdirilən Y.Salmanovun vəziyyəti orta-ağır olaraq qiymətləndirilir. Hadisə şahidlərinin verdiyi məlumata görə, ilkin ehtimala görə intihar hadisəsi ailə münaqişəsi zəminində baş verib.**

❑ **İlkin MURADOV**


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 11 (6332) 16 yanvar 2016

**Bakının fotolarda görünən bu yollarında "Dakar" rallisi keçirilə bilər. Bu yolları ilk görən düşünə bilər ki, bura hələ heç insan ayağı dəyməyib, piyadaların hərəkəti üçün səki yoxdur. Avtomobillər üçün olan yol isə Azərbaycanın ən ucqar dağ kəndlərindəki yollardan geri qalmır.**

# Marşrutsuz, asfaltsız qəsəbənin ümidsiz sakinləri

## Paytaxtdan cəmi bir neçə dəqiqəlik məsafədə yerləşən Muxtarov qəsəbə sakinlərinin səsini eşidən yoxdur...





Söhbət heç də ucqar bir rayonun problemindən getmir. Haqqında danışdığımız yollar paytaxtdan bir neçə dəqiqəlik məsafədə yerləşən, Sabunçu vağzalından Muxtarov qəsəbəsinə, Muxtarov qəsəbəsindən də Ramanaya aparır. Bu yollar köhnə aeroport yolu kimi də tanınır.

Sakinlərin şikayətlərindən sonra məsələ ilə bağlı "Yeni Müsavat"ın ötən saylarında məlumat dərc etmişdik. Bundan sonra ötən il yolun çox qısa bir hissəsində "Azəryolservis" ASC tərəfindən təmir işləri aparıldı. Lakin bu işlər sadəcə yolun üstünü bəzəməkdən o tərəfə keçmədi.

Bu ilin qış aylarında vətəndaşlar yenə eyni palçıqlı, çala-çuxurlu yollarla mübarizə apararaq işə, evə, məktəbə getməyə çalışır. Yolda əvvəl asfalt örtüyü olub. Həmin yollar 2005-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə yeni inşa edilən məktəbə görə asfaltlanıb. İndi isə həmin o abad yoldan əsər-əlamət yoxdur.

"Yeni Müsavat"a müraciət edən qəsəbə sakinləri deyir ki, bu yollarda "Dakar" rallisi keçirmək olar. "Ölkəmizdə "Formula 1" yarışları keçiriləcək. Şəhərin küçələrindəki vəziyyət buna imkan verir. Bizim məhəllə yolları isə "Dakar" rallisinin keçirilməsi üçün uyğundur. Bu yollarda avtobus necə hərəkət etsin? Sakinlər necə hərəkət etsin? Müvafiq qurumlara müraciət edirsən, deyirlər, nəzərdə tutulub, planlaşdırılır. Amma nəticə yoxdur", - deyə qəsəbə sakinləri bildirir.



Qeyd edək ki, asfalt örtüyünün dağılmasına səbəb qəsəbələrdə gedən tikinti işləri, ağır yük maşınlarının bu yollardan müntəzəm istifadə etməsidir. Daha sonra sözü gedən ərazilərdə kütləvi şəkildə yeni evlərin tikintisi başlayıb. Aeroport yoluna buraxılmayan yük maşınları da alternativ yol olaraq buranı seçib. Bu yolun bir ucu da Zabrat qəsəbəsinə gedib çıxır.

Qəsəbənin yol problemi ilə yanaşı, marşrut problemi də var. Elə "marşrut yoxdur" da deyə bilərik. Çünki qəsəbədən yalnız bir marşrut keçir. Çala-çuxur yollarla işləyən 204 saylı avtobus Ramana kəndindən - kənd meydanından "Koroğlu" metrostansiyasına və geriyə işləyir. Bu marşrut isə təbii ki, sakinlərin tələbatını ödəmir. Onlar hər gün şəhərə gedən avtobuslara minmək üçün kilometrlərlə yolu piyada gələrək Sabunçu vağzalına gəlirlər. Buradan da şəhər istiqamətində hərəkət edən avtobuslara minirlər.

Sakinlərin tələbatını ödəməyən marşrut yağış yağanda da çox zaman işləmir. Sakinlərin köməyinə isə qəsəbələrarası işləyən taksilər çatır. Bu taksilər də bir nəfəri 1 manata avtobus dayanacaqlarına qədər aparır. Lakin bu qiymət hər gün bu yoldan istifadə edən sakinlərin büdcəsinə uyğun deyil.

Sakinlər məcbur qalıb hər gün bu yoldan bir neçə kilometr piyada hərəkət edərək işə, məktəbə getməyə çalışırlar. Ramanadan - kənd meydanındakı sonuncu dayanacaqdan çıxan 204 nömrəli marşrut Muxtarov qəsəbəsinə çatanda artıq sərnişinlər avtobusun qapılarından sallanmış vəziyyətdə olurlar. Sakinlər alternativ marşrut olmadığından, bu yolları piyada qət etməli olurlar.

**Bu qəsəbənin sakinləri 2014-2016-cı illəri əhatə edən Dövlət Proqramının problemə bir əncam çəkəcəyinə ümid edirdilər. Proqramda Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafının yaxşılaşdırılması nəzərdə tutulsa da Muxtarov və Ramana qəsəbələrinin sakinləri deyir ki, geridə qalan bu müddətdə yaxşılığa doğru heç nə dəyişməyib. Ölkədə iqtisadi vəziyyətin çətinləşməsi sakinlərin ümidini puç edib. Ən azından onlar alternativ marşrut xətti ilə qarşılaşdıqları çətinliyi az da olsa aradan qaldırılacağına ümid edirlər.**

❑ **İlkin MURADOV**

# Bakının mərkəzindəki mağazalar sürətlə bağlanır

## İqtisadçı-ekspert: "Bu proses daha da sürətlənəcək, çünki..."

**Manatın ikinci devalvasiyasından sonra ölkə əhalisi "qənaət rejimi"nə keçməyə başlayıb. Bu hal özünü paytaxtın mərkəzində yerləşən mağaza və müxtəlif iaşə obyektlərində də açıq şəkildə göstərir.**

Musavat.com-un əməkdaşı Bakının "Torqovı" kimi tanınan Nizami küçəsində yerləşən mağaza və iaşə obyektlərinin müştərilərinin xeyli azaldığının şahidi olub. Bir zamanlar insanlarla dolu olan mağazalar artıq müştərisizlikdən içəridə gəzişən satıcılarla baş-başa qalıb. İkinci devalvasiya Bakıda xüsusilə texnologiya mağazalarına təsir edib. Manatın dollara nisbətdə ucuzlaşmasından sonra eyni zamanda ən çox qiymət artımına da gedənlər məhz bu mağazalardır.

Bundan başqa, bəhs etdiyimiz küçədə qızıl-gümüş, zinət əşyaları mağazaları da çətin vəziyyətdə qalıb. Orada yerləşən məşhur "Captain Silver" mağazası isə artıq öz fəaliyyətini tamamilə dayandırıb. Satıcılar bildirir ki, manatın birinci devalvasiyasından sonra insanlar heç olmasa mal almasa da, mağazalara girib baxırdılar. İndi isə heç baxmaq üçün də gələn yoxdur. Bu səbəbdən də əksər mağazaların üzərində böyük faizlə endirim, yaxud da bağlanacaqları ilə bağlı elan görmək olur.




**İqtisadi-ekspert Natiq Cəfərli** isə musavat.com-a açıqlamasında bildirib ki, mərkəzdə mağazaların bağlanması prosesi bundan sonra daha sürətlə gedəcək: "Mərkəzdəki mağazaların bağlanmasının iki önəmli səbəbi var. Birinci səbəb odur ki, icarə haqları həddindən artıq yüksəkdir. İkinci səbəb hazırda ticarət dövriyyəsinin azalması və insanların alıcılıq qabiliyyətinin aşağı düşməsidir. İnsanlar sürətlə iş yerlərini və gəlirlərini itirir. Bu isə bir başa alıcılıq qabiliyyətinə də təsir edir. Eyni zamanda vəziyyət elədir ki, sabaha güvən də yoxdur və əlində vəsaiti olan belə bu səbəbdən onu geyimə xərcləmir. Bu iki səbəbə görə mərkəzdəki dükanlar sürətlə bağlanır. Bu sürət o zaman aşağı düşə bilər ki, icarə haqları kəskin şəkildə azaldıla və iqtisadi aktivlik, manata olan güvən arta. Ancaq təəssüf ki, ikinci dediyim məsələ yaxın zaman üçün keçərli deyil. Mağazalarda qiymətlərin kəskin şəkildə ucuzlaşması isə mümkün deyil. Çünki malın maya dəyəri var və hamısı xaricdən gətirilir. Dolların və avronun Azərbaycandakı indiki məzənnəsini nəzərə alsaq, qiymətlərin enməsindən danışa bilmərik".




❑ **Əli RAİS**

## Azərbaycanın tranzit daşımalarından gəlirləri artacaq



**Ötən gün Bakıda Azərbaycan, Qazaxıstan, Gürcüstan və Ukrayna dəmir yolu rəhbərlərinin dördtərəfli görüşü keçirilib. Tədbirdə Qazaxıstan, Azərbaycan, Gürcüstan və Ukrayna arasında yükdaşımanın həcmi, Avropadan Ukrayna, Gürcüstan, Azərbaycan və Qazaxıstan ərazisindən keçməklə Çinə və geriyə konteyner qatarları üçün rəqabətə davamlı kompleks dərəcələrinin müəyyənləşdirilməsi yanaşı, Gürcüstan və Azərbaycan ərazisindən keçməklə Ukraynadan ixrac olunan yüklərin Qazaxıstan ərazisinə daşınmasının təşkilində güzəştli tarif şərtlərinin müəyyən edilməsi məsələləri müzakirə edilib, güzəştli tarif şərtlərinin müəyyən edilməsi ilə bağlı sənədlər də imzalanıb.**

Dörd ölkənin müvafiq qurumları rəhbərlərinin keçirdiyi görüşdə müzakirə olunan məsələlərlə bağlı "Yeni Müsavat"a açıqlama verən "Azərbaycan Dəmir Yolları"nın mətbuat xidmətinin rəhbəri Nadir Əzməmmədov bildirdi ki, əsasən yüklərin daşınması ilə bağlı danışıqlar aparılıb, növbəti mərhələdə isə tariflər müəyyənləşdiriləcək: "Birinci danışıqlar İranla bağlı idi. Ukraynadan gələn yüklərin Gürcüstan üzərindən Azərbaycan ərazisindən keçirilərək İrana aparılması müzakirə edildi.

Daha sonra 4 istiqamətdə, Gürcüstan, Qazaxıstan,Ukraynaya Avropadan gələn yüklərin Azərbaycan üzərindən daşınmasının həyata keçirilməsi müzakirə olundu. Hər iki istiqamət haqda qərar qəbul olundu. Sadəcə, tariflər tam müəyyənləşməyib. Odessadan, Qara dənizdən və dirgər limanlardan gələn yüklərə baxılıb, tariflər müəyyən ediləcək. Bu görüşlərin faydası odur ki, Azərbaycandan tranzit yükdaşımaları artır, gəlirlər artır. Azərbaycan tranzit ölkə kimi formalaşır və Avropadan gələn yüklərin Azərbaycandan daşınması həyata keçiriləcək".

❑ **Nərgiz LİFTİYEVA**

Yeni MÜSAVAT

Son səhifə

N 11 (6332) 16 yanvar 2016



## Qızılları qoymağa yer tapmadılar

Çində keçirilən toy görənləri heyrətə salıb. Toyda bəy və gəlinə taxılan qızılların sayı o qədər çox olub ki, qonaqlar qızılları qoymağa yer tapa bilməyiblər. Fotoqraf Bob Lam toyda gördüyü hər şeyi çəkərək sosial mediada və televizorda yayımlayıb. Şəkillərdə gəlinin üzərindəki qızılların qədəri aydın görünür. Gəlin qızılları üzərində saxlaya bilmədiyi üçün başqa bir stol açılıb və qonaqlar gəlinin qızıllarını oraya qoymağa başlayıblar. Gəlin və bəyin üzərinə taxılan pullar onlarla paketlərə yığılaraq saxlanılıb. Toy sahibləri isə qızılların sayını bilmədiklərini deyiblər.



## Xəzinə üçün ev yıxacaq

Kolumbiyalı narkobaron Pablo Eskobar Mayamidəki evini satın alan Kristian Berdouare adlı kişi mafiyanın gizlətdiyi xəzinəni tapmaq üçün evi dağıtmağa qərar verdiyini açıqlayıb. Amerikada "Chicken Kitchen" adlı restoran şəbəkəsinin sahibi olan Berdouare bir axtarış qrupu yaratdığını və metalı hiss edən cihazlarla evi axtardıqlarını deyib. Evin içində bir şey tapa bilmədiyi üçün evi dağıtmağa qərar verən restoran sahibi "evdən qızıl, zinət əşyası, pul ya da cəsəd çıxa bilər" deyə açıqlama verib.

# Savaşdan qaçdı, lotoda qazandı

Fransaya sığınan bir Suriya vətəndaşı "qazı qazan" şans oyununda 1 milyon avro qazanıb. "Le Parisien" qəzeti 2011-ci ildə Fransaya gələn 30 yaşlı gəncin 1 milyon avro qazandığı haqda xəbər yayıb. Fransız Şans Oyunları İdarəsindən verilən məlumata görə, 1 milyon avro qazanan suriyalı gənc Fransada az maaşla çalışırmış. Suriyadakı müharibəyə görə ölkəsini tərk edən gənc qazandığı pulla əvvəlcə ev alıb. İndi isə kiçik bir restoran açmağa qərar verib. Onun ən böyük istəyi isə Suriyadakı ailəsini Fransaya gətirməkdir.



# 58 yaşında dünya turu

58 yaşlı qadın yuxusunda gördüyü velosipedlə dünya turu macərasını gerçəkləşdirmək üçün gəzməyə başlayıb. İspaniyada dünyaya gələn və 22 yaşında Fransaya ingilis dili öyrənmək üçün gələn Blanca Fernandez Todea hər zaman yuxusunda gördüyü velosipedlə dünya turu istəyini gerçəkləşdirir. Ötən ilin iyul ayında Londonda başladığı velosiped turunda Hollandiya, Almaniya, Avstriya, Slovakiya, Macarıstan, Serbiya, Rumıniya, Yunanıstan və Bolqarıstan kimi 9 ölkəni keçərək Türkiyəyə gələn Fernandez təxminən 3500 kilometr yolu pedal çevirərək Türkiyənin Bursa şəhərinə çatıb. 2 uşaq anası olan qadın dünyanın heç bir yerində görə bilmədiyi səmimiyyəti, nəzakəti, qonaqpərvərliyi Türkiyədə gördüyünü deyib. Dünyanı yavaş-yavaş görmək istədiyini deyən Fernandez "velosipedlə gəzərkən dünya ilə sizin aranızda əngəl yoxdur. Ətrafınızı izləyə bilirsiniz. İnsanlara danışmaq üçün yaxınlaşmaq mümkün olur" deyə açıqlama verib. Son olaraq Afrikanı gəzməyə qərar verən 58 yaşlı qadın daha çox ölkə görmək üçün tələsdiyini deyir.





## Mangonun möcüzəvi faydaları

Tropik iqlim meyvəsi olan mango yüksək miqdarda C vitamini ehtiva edir. Dünya tropik iqlimində "meyvələrin kraliçası" olaraq bilinən mango xarici quruluşu və kəsildiyində ortaya çıxan mükəmməl qoxusu ilə də seçilir. Mango xüsusilə qan dövranının müalicəsində əvəzsiz meyvə hesab olunur. İmmuniteti gücləndirər. Vitaminlər və dəmir ehtiva etdiyi üçün böyrəklərə faydası vardır. Tərkibindəki sıx kalium sayəsində ürək döyünməsini tənzimləyir. Dəridəki tıxalı məsamələri yox edər və sızanaqlarla mübarizəyə köməkçi olar. 100 qram mango ilə gündəlik A vitamini ehtiyacınızın 25%-ni qarşılaya bilərsiniz. Mango, xüsusilə gözlərin qüvvətlənməsində təsirlidir. Xərçəngdən qoruyur, görməni inkişaf etdirir, həzmi asanlaşdırır, xolestrolu aşağı salır, yaddaşı gücləndirir.




QOÇ - Hiss olunur ki, ətrafınızda cərəyan edən hadisələr sürətli olsa da, cansıxıcı təsir bağışlayır. Amma bu, ötəridir. Əgər qərarlarınızda qətiyyət göstərsəniz, narahatlıq olmayacaq.

BUĞA - Əvvəlki günlərlə müqayisədə sağlıq durumunuz qənaətbəxşdir. Bundan irəli gələrək fəaliyyətinizi aktivlik müstəvisinə yönəltmək imkanı qazanacaqsınız. İşgüzar görüşləri təxirə salmayın.

ƏKİZLƏR - Ulduzların düzümü kənar təsirlərə məruz qalacağınızdan xəbər verir. Ələlxüsus da saat 12-15 arası ehtiyatı əldən buraxmamalısınız. Sevgi münasibətlərini arxa plana salmayın.

XƏRÇƏNG - İlin-günün bu vaxtında orqanizminiz də passivləşməyə vaxt tapıb. Halbuki indiki ərəfədə qarşınızda çoxsaylı vəzifələr var. Deməli, səhhətinizi qorumaqla hər şeyə nail ola bilərsiniz.

ŞİR - Kənardan hansısa dəstək alacağınız inandırıcı deyil. Bu səbəbdən də yalnız öz gücünüzə arxalanın. Göy qübbəsi görüş və müzakirələrə gecikməməyi tövsiyə edir. Riskdən qorxmayın.

QIZ - Bəxtinizdə maraqlı bir gün durur. Qarşınıza çıxan bütün şanslardan yararlanın. Şəxsi büdcənizin azlığından şikayətlənməyin. Axı hələ hər şey itirilməyib. Azacıq səbr edin.

TƏRƏZİ - Yaxşı olar ki, özünüzü bütünlüklə sevgiyə həsr edəsiniz. Çünki məhəbbətin himayədarı olan planetinizin (Venera) ideal nöqtədə qərar tutması aktivliyiniz xeyli artıracaq.

ƏQRƏB - Astroloji göstəricilər xoş bir təqvim yaşayacağınızı bildirir. Xüsusən də saat 14-dən sonra bir neçə sürprizlə rastlaşma ehtimalınız var. Şəxsi büdcənizi artırmaq üçün cənfəşanlıq göstərin.

OXATAN - Diqqətli olun, sizi aldada bilərlər. Ələlxüsus da peşə-sənət fəaliyyətində, işgüzar sövdələşmələrdə ayıq-sayıqlığınızı artırmalısınız. Düşünülməmiş riskə ehtiyac yoxdur.

OĞLAQ - Bürcünüzün "hakimiyyət dövrü" daraldıqca işgüzarlığınız da artmaqdadır. Bu səbəbdən şəxsi büdcənizi qorumalı, fəaliyyət istiqamətlərini dəqiqləşdirməlisiniz. Mübahisələrdən qaçın.

SUTÖKƏN - Maraqlı adamlarla görüşəcəyinizi bəyan edən ulduzlar hazırkı perspektivləriniz üçün bunun böyük səmərə verəcəyini deyir. Başqa maraqlı olaylarla da qarşılaşacağınız istisna olunmur.

BALIQLAR - Uğurlarınıza təkan verildiyindən qlobal problemləriniz arxada qalmaqdadır. Lakin rəqiblərlə münasibətdə ehtiyatı əldən buraxmamalısınız. Adı təhlükədə hallanan vəzifəlilərdən uzaq olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Mobil telefon əhalidən çoxdur



625 min əhalisi olan Monteneqroda 1 milyon 37 min mobil telefon xətti istifadə edilir. Hər 100 nəfər 166 ədəd telefon xətti düşür. Ölkə paytaxtında yerləşən Xəbərləşmə və Posta Xidmətləri Agentliyindən verilən məlumatlara görə, 2015-ci ildən etibarən ölkədə mobil telefonların sayı əhalinin sayından çoxdur. Ölkə əhalisinin çoxu iki telefondan istifadə edir. 2014-cü ildə telefon istifadə edənlərin sayı 0,72% azalıb.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300